HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

Vergilər

№ 29 (719) ■ 31 iyul 2014 www.vergiler.az Qiyməti: 40 qəp.

# Prezident İlham Əliyev Bakı Olimpiya Stadionunda və Böyükşor gölünün ekoloji vəziyyətinin bərpası ilə bağlı görülən işlərlə tanış olub

*İyulun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Olimpiya Stadionunda tikinti işlərinin gedişi ilə tanış olub.*



Dövlətimizin başçısına görülən işlərlə bağlı məlumat verilib. Bildirilib ki, 2011-ci ilin iyununda təməli qoyulan stadionda tikinti işləri başa çatmaq üzrədir. Stadionun tammiqyaslı tikintisinə 2012-ci ilin noyabrında başlanılıb və işlərin gələn ilin fevralında yekunlaşması nəzərdə tutulur. Ümumi layihə üzrə işlərin böyük əksəriyyəti başa çatıb. Stadionun svay işləri bütünlüklə, torpaq və dəmir-beton işlərinin 95 faizi yerinə yetirilib. Dam konstruksiyası yerinə qoyulub və polad konstruksiya işlərinin böyük bir hissəsi yekunlaşıb. Artıq fasad örtüyünün vurulmasına başlanıb və interyer-tamamlama işləri sürətlə davam edir.

Qeyd edilib ki, paytaxtda müasir memarlıq üslubu, xüsusi gözəlliyi ilə seçiləcək, 69 minə yaxın tamaşaçı tutumuna malik Bakı Olimpiya Stadionunun bu tipli idman qurğuları sırasında özünəməxsus yeri olacaq. Beynəlxalq standartlara tam cavab verəcək stadionda müxtəlif funksiyalı tribunalar, qaçış zolağı və digər infrastruktur inşa ediləcək. Təqribən 50 hektar ərazidə tikilən altımərtəbəli stadion 62 metr hündürlüyündədir. İnşaat işləri Beynəlxalq Tikinti Standartına, FİFA və UEFA standartlarına uyğun aparılır. Əsas və köməkçi stadionlardan, həmçinin mexaniki binadan ibarət olacaq stadionda VIP, CIP, media, habelə əlil tamaşaçı bölmələri nəzərdə tutulub. Oyun meydançasına 4, tribunalara isə 26 qapıdan giriş olacaq. Olimpiya normativlərinə əsasən insanların stadiona daha çox piyada, ictimai nəqliyyatla gəlmələri nəzərdə tutulub ki, bunun üçün də 3103 yerlik avtomobil parkı inşa edilir. Stadionun ətrafında ümumilikdə 82 min kvadratmetr yaşıllıq sahəsi salınacaq. Bununla da orijinal layihə əsasında inşa edilən Bakı Olimpiya Stadionu dünyanın möhtəşəm və nadir idman qurğularından biri olacaq.

Azərbaycan Prezidenti Bakı Olimpiya Stadionu ətrafında inşası davam etdirilən yol-nəqliyyat infrastrukturunun tikintisi ilə tanış olub. Dövlətimizin başçısına məlumat verilib ki, Həsən Əliyev küçəsi-Ziya Bünyadov prospekti-Olimpiya Stadionu avtomobil yolunun birinci hissəsində tikinti işləri qrafik üzrə davam etdirilir. Layihə çərçivəsində işlərin böyük hissəsi görülüb. Çəkilən yolun ümumi uzunluğu 17 kilometrdir və onun hərəkət hissəsi 4-6 zolaqlı olacaq. Növbəti mərhələdə 3 körpünün inşası nəzərdə tutulur. Birinci körpünün uzunluğu 205 metr, ikinci körpünün uzunluğu 162 metr, piyadalar üçün nəzərdə tutulan üçüncü körpünün uzunluğu isə 115 metr olacaq. Bundan başqa, ərazidə uzunluğu 900 metrə yaxın olan piyada keçidi inşa ediləcək, yol üzərində iki tunel tikiləcək. Dövlət başçısına Həsən Əliyev küçəsi-Ziya Bünyadov prospekti-Olimpiya Stadionu avtomobil yolunun ikinci hissəsində görüləcək işlərlə də bağlı məlumat verilib. Diqqətə çatdırılıb ki, layihə çərçivəsində ümumi uzunluğu 5 kilometrə yaxın olan yol çəkiləcək. Bu yol üzərində bir körpü və iki tunel tikiləcək. Tuneldən keçən yollar Bakı Olimpiya Stadionu ilə Olimpiya şəhərciyini birləşdirəcək.

Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev Böyükşor gölünün və ətraf ərazilərin ekoloji vəziyyətinin kompleks bərpası ilə bağlı görülən işlərlə də tanış olub.

İlk Avropa Oyunlarına aid tədbirlərin böyük əksəriyyəti Böyükşor gölünün şərq sahilində, hazırda tikilməkdə olan Bakı Olimpiya Stadionu kompleksində keçiriləcək. Burada çoxsaylı qonaqların, idmançıların və turistlərin qəbul edilməsi gözlənilir. Bu baxımdan gölün və ətraf ərazilərin ekoloji vəziyyətinin kompleks bərpası və Böyükşor bulvarının yaradılması xüsusi əhəmiyyət kəsb edir.

Qeyd edilib ki, gölün ekoloji bərpası layihəsi iki mərhələdə həyata keçiriləcək. 2014-2015-ci illəri əhatə edən birinci mərhələdə işlər uğurla davam etdirilir. Gölün Olimpiya Stadionunun yaxınlığında yerləşən 300 hektara yaxın ərazisi bərpa olunur. Bu mərhələdə gölün şimal hissəsinin tarixən neftlə çirklənmiş sahəsinin bənd vasitəsilə sahil xəttindən ayrılması nəzərdə tutulurdu. Artıq bəndləmə işləri yekunlaşıb. Bununla da neftin, çirklənmiş suyun və üzən tullantıların axınının qarşısı alınıb.

Layihə üzrə ilkin mərhələdə 2,8 milyon kubmetr həcmində çöküntünün 100 min kubmetrdən çoxu təmizlənib. Gölün mühafizə zonası da daxil olmaqla, ciddi mühafizə işi təşkil edilib, göl və sahil xətlərinin məişət və tikinti tullantıları ilə çirklənməsinin qarşısı tamamilə alınıb. Böyükşor gölünün cənub sahilində geniş abadlıq-quruculuq işləri aparılır, 16 hektara yaxın ərazidə park və yaşıllıq salınır. Gələn ilin birinci yarısında şərq sahil xətti boyunca Böyükşor bulvarının bir kilometrədək hissəsi salınacaq və buradan stadion ərazisinə keçid təmin olunacaq.

Bildirilib ki, Böyükşor gölünün tam bərpası üzrə ikinci mərhələ 2015-2020-ci illəri əhatə edəcək. Bununla da göl öz təbii tarixi məcrasına qaytarılacaq, su səviyyəsi tənzimlənəcək və ekosistem bərpa olunacaq. Beynəlxalq ekspertlərin qiymətləndirmələrinə əsasən Böyükşor gölü dünyada ən mürəkkəb çirklənmiş göllərdən hesab edilir. Qısa müddətdə görülmüş işlər nəticəsində suyun keyfiyyət göstəricilərinin dinamikası müsbətə doğru dəyişib.

# Maliyyə Nazirliyinin yeni inzibati binası istifadəyə verilib

*İyulun 25-də Prezident İlham Əliyev Maliyyə Nazirliyinin yeni inzibati binası ilə tanış olub.*



Dövlətimizin başçısına ölkəmizin maliyyə sistemi haqqında məlumat verilib. Bildirilib ki, respublikamızda beynəlxalq standartlara cavab verən xəzinədarlıq sistemi formalaşdırılıb. Uğurlu sosial-iqtisadi və düzgün büdcə-vergi siyasəti nəticəsində son 12 ildə dövlət büdcəsinin gəlirləri 16 dəfə artıb. Son illər bütün strukturlarda olduğu kimi, Maliyyə Nazirliyinin maddi-texniki bazasının möhkəmləndirilməsi, nazirliyin tabeliyində olan bütün inzibati binaların müasirləşdirilməsi və səmərəli fəaliyyət üçün hərtərəfli iş şəraitinin yaradılması istiqamətində ardıcıl işlər görülür. Maliyyə Nazirliyinin 35 rayon və ya şəhər maliyyə idarəsi, nazirliyin Dövlət Xəzinədarlığı Agentliyinin Bakı şəhəri üzrə 5 xəzinədarlıq idarəsi üçün yeni inzibati binalar tikilib, 17 yerli maliyyə orqanının binası əsaslı təmir edilib, ən müasir texnologiya və avadanlıqla təchiz olunub. Qeyd olunub ki, hazırda Maliyyə Nazirliyinin fəaliyyətində modern və çevik idarəetmənin təmin edilməsi, şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması üçün elektron xidmətlərin geniş tətbiqi diqqət mərkəzindədir. Ümumilikdə, Prezident İlham Əliyevin «Dövlət məmuru xalqın xidmətçisidir» fikirlərini fəaliyyətində əsas götürən Maliyyə Nazirliyinin kollektivi işini beynəlxalq standartlara və günün tələblərinə uyğun qurmaqla qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün səylərini əsirgəmir.

Prezident İlham Əliyevə Maliyyə Nazirliyinin yeni inzibati binasında yaradılan şəraitlə bağlı məlumat verilib. Qeyd edilib ki, Maliyyə Nazirliyinin ötən əsrin 50-ci illərində inşa olunan əvvəlki binası istismara yararsız vəziyyətdə idi və müasir tələblərə cavab vermirdi. Dövlət başçısının iş yerlərinin ən müasir standartlara uyğun yenidən qurulmasına dair tapşırığına əsasən paytaxtın ən gözəl və tarixi guşələrindən birində Maliyyə Nazirliyinin yeni inzibati binası inşa olundu. Bina Bakı şəhərinin müasir simasına uyğun, milli və orijinal memarlıq üslubunda tikilib. Burada nazirliyin mərkəzi aparatı, qurumun strukturuna daxil olan 2 dövlət agentliyi və 3 dövlət xidmətinin fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb. Yeni binanın ərazisində əsaslı yaşıllaşdırma və abadlıq işləri aparılıb.

Əsas girişdə ulu öndər Heydər Əliyevin büstü qoyulub. Binanın akt zalı da müasirliyi ilə diqqəti cəlb edir. Burada ən son elmi-texniki yeniliklərə əsaslanan informasiya-kommunikasiya texnologiyaları geniş tətbiq olunub. Nazirliyin ekspozisiyalarının zənginliyi ilə seçilən muzeyində Azərbaycanın maliyyə sisteminin keçdiyi tarixi inkişaf yolu mərhələlər üzrə təqdim edilir. Muzeydə ölkəmizin qədim əsginasları, müasir maliyyə sektorunun formalaşdırılması istiqamətində ilkin tədbirlər, respublikamızın maliyyə sisteminin ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə keçdiyi zəngin inkişaf yolu, son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar, büdcə, xəzinədarlıq, sığorta və digər sahələrdə tətbiq edilən yeniliklər, Maliyyə Nazirliyinin beynəlxalq əlaqələri geniş əksini tapıb.Sonra Prezident İlham Əliyevə büdcə təşkilatları üçün maliyyə uçotu və xəzinədarlığın informasiya idarəetmə sistemləri təqdim olunub. Qeyd edilib ki, nazirlikdə büdcə təşkilatları üçün maliyyə uçotu üzrə vahid avtomatlaşdırılmış sistem, dövlət büdcəsinə daxil olan vəsaitlərin, bütün dövlət xərclərinin, xəzinə hesablarının bir mərkəzdən elektron və operativ şəkildə idarə olunmasını, faktiki xərclərə nəzarəti təmin edən Xəzinədarlığın İdarəedilməsinin İnformasiya Sistemi yaradılıb.

## Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik

**Əziz həmvətənlər!**

Mübarək Ramazan bayramı münasibətilə sizi və bütün dünya azərbaycanlılarını ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi çatdırıram. Hikmətlər hikməti olan Qurani-Kərimin nazil olduğu Ramazan ayı bəşər övladını xeyirxahlığa, birliyə, mənəvi kamilliyə dəvət edən, öz mahiyyəti ilə insanların ruhunu, düşüncəsini saflaşdıran əziz bir aydır.

Azərbaycanda milli və dini mərasimlər, o cümlədən Ramazan bayramı hər il dövlət səviyyəsində təntənəli şəkildə qeyd olunur. Ölkəmizdəki dövlət-din münasibətləri, vətəndaşların dini etiqad azadlığı milli qanunvericiliyə və beynəlxalq hüquq normalarına uyğun olaraq tənzimlənir. Bu gün dünyanın tolerantlıq örnəyinə çevrilən Azərbaycanda ayrı-ayrı din və təriqətlər arasında qarşılıqlı hörmət və etimad mühitinin, multikultural dəyərlərin qorunması və inkişaf etdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir. Xüsusi vurğulamaq istərdim ki, vaxtilə sovet rejimi tərəfindən etiqad və vicdan azadlığının qadağan edildiyi ölkəmizdə indi bütün xalqların və dinlərin nümayəndələrinin rahat şəkildə və mehriban ailə kimi yaşaması müstəqil Azərbaycanın ən böyük sərvətlərindən biridir.

Bu günlər cəmiyyətimiz əsl bayram sevinci ilə yaşayır. Orucluğun sınağından könül xoşluğu və fərəhlə çıxanlar dünyanın və ölkəmizin əmin-amanlığı naminə və Vətən torpağı uğrunda canını fəda etmiş şəhidlərimizin müqəddəs ruhları üçün dualar edirlər.

Mərhəmət, şəfqət və bərabərlik rəmzi olan Ramazan ayında inanclı vətəndaşlarımızın tutduğu orucun, etdiyi dua və niyyətlərin Allah dərgahında qəbul olunmasını diləyir, bir daha hər birinizin bayramını təbrik edir, ailələrinizə səadət, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

**Allah orucunuzu qəbul etsin!**

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

2 Borclu vergi ödəyicilərinin əmlakı siyahıya alınmışdır

3 «ASAN imza» vasitəsilə əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması

4 Banklar sahibkarlara münasibəti dəyişməlidir

5 Vergi Ödəyicilərinə Xidmət Mərkəzində bir gün...

# Borclu vergi ödəyicilərinin əmlakı siyahıya alınmışdır

*İyul ayının 21-22-də 9 saylı Ərazi Vergilər İdarəsinin Vergi borclarının alınması şöbəsinin əməkdaşları tərəfindən idarənin əhatə dairəsində yerləşən bir sıra borclu vergi ödəyicilərində əmlakın siyahıya alınması tədbirləri keçirilmişdir.*

Ağdaş şəhəri, Heydər Əliyev prospektində yerləşən, fiziki şəxs Rzayev Əlihüseyn Hüseynqulu oğluna məxsus obyektin fəaliyyəti vergi orqanları tərəfindən araşdırılarkən onun 1061 manat məbləğində vergi borcunun yarandığı müəyyən edilmiş, bu barədə vergi ödəyicisinə bildiriş göndərilsə də borc qanunvericilikdə nəzərdə tutulan müddətdə ödənilməmişdir. Yaranmış vergi borcunun ödənilməsini təmin etmək üsulu kimi, Vergi Məcəlləsinin 89-cu maddəsinə əsasən, iyul ayının 14-də əmlakın siyahıya alınması haqqında çıxarılmış qərara əsasən, vergi ödəyicisinə məxsus 1230 manat dəyərində məişət avadanlığı müəyyən edilmiş qaydada siyahıya alınmışdır.

Kürdəmir şəhəri, Cəfər Cabbarlı küçəsində yerləşən, fiziki şəxs Əliyev Cəmil Teyyub oğluna məxsus ticarət obyektində də əmlakın siyahıya alınması tədbirləri keçirilmiş, tədbir zamanı 2229 manat vergi borcu müqabilində 2520 manat dəyərində olan müxtəlif cihaz və avadanlıq, eləcə də qida məhsulları siyahıya alınmışdır.

# İqtisadi göstəricilər artır

*Maliyyə Nazirliyindən verilən məlumata görə, bu ilin ilk altı ayında ötən ilin eyni dövrü ilə müqayisədə ümumi daxili məhsul (ÜDM) 2,1% artaraq 28 milyard 743 milyon manat təşkil edib. İlin ilk yarısında qeyri-neft sektoru üzrə ÜDM keçən ilin eyni dövrü ilə müqayisədə 7% artaraq 16 milyard 173,9 milyon manata çatıb. Əhalinin gəlirlərinin artım sürəti mövcud inflyasiyanı 2,9 dəfə üstələyib. Banklara qoyulan əmanətlərin məbləği keçən ilin müvafiq dövrü ilə müqayisədə 12,8% artaraq iyun ayının 1-nə 6,6 milyard manata çatıb.*

**Büdcə gəlirləri proqnozları üstələyib**

2014-cü ilin yanvar-iyun aylarında dövlət büdcəsinin mədaxili 9 milyard 338,8 milyon manat, xərcləri 8 milyard 723,8 milyon manat olub, nəticədə 615 milyon manat məbləğində büdcə artıqlığı (profisit) yaranıb.

Dövlət büdcəsinin mədaxili 9 milyard 192,6 milyon manat proqnoza qarşı 9 milyard 338,8 milyon manat və ya 1,6% çox olub. Vergilər Nazirliyi mədaxil proqnozunu 103,6% icra etməklə dövlət büdcəsinə 3 milyard 578,6 milyon manat vəsaitin ödənilməsini təmin edib ki, bu da proqnoza nisbətən 123,7 milyon manat, ötən ilin eyni dövrü ilə müqayisədə isə 262,1 milyon manat və ya 7,9% çoxdur.

*Vergilər Nazirliyi mədaxil proqnozunu 103,6% icra etməklə dövlət büdcəsinə 3 milyard 578,6 milyon manat vəsaitin ödənilməsini təmin edib ki, bu da proqnoza nisbətən 123,7 milyon manat, ötən ilin eyni dövrü ilə müqayisədə isə 262,1 milyon manat və ya 7,9% çoxdur*

Dövlət Gömrük Komitəsi proqnoza 100,2% əməl edərək büdcəyə 732,8 milyon manat vəsait təmin edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 14,5% və ya 92,9 milyon manat çoxdur.

Dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətlərdən daxilolmaları 96,9 milyon manat təşkil edib. Sair daxilolmalardan nəzərdə tutulan 18,5 milyon manata qarşı büdcəyə 46,7 milyon manat və ya proqnoza nisbətən 2,5 dəfə çox vəsait daxil olub.

Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert edilən vəsaitin həcmi isə 4 milyard 883,8 milyon manat təşkil edib.

**Xərclərin 95 faizə qədəri icra olunub**

2014-cü ilin altı ayında dövlət büdcəsinin xərcləri proqnoza nisbətən 94,7% və ya 8 milyard 723,8 milyon manat icra olunub. İqtisadi təsnifata uyğun olaraq cari ilin altı ayında dövlət büdcəsi xərclərinin 30,3%-i və ya 2644,9 milyon manatı sosialyönümlü xərclərin (əməyin ödənişi fondu, təqaüd və sosial müavinətlər, dərman və ərzaq xərcləri) maliyyələşdirilməsinə yönəldilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 14,5% və ya 334,3 milyon manat çoxdur.

Funksional təsnifata uyğun olaraq 2014-cü ilin birinci yarısında ötən ilin eyni dövrü ilə müqayisədə müdafiə xərclərinə 24,5% (154,2 milyon manat), mənzil və kommunal təsərrüfatı xərclərinə 23,1% (28,7 milyon manat), mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyətlə əlaqədar xərclərə 19,5% (22,4 milyon manat), təhsil xərclərinə 7,6% (44,5 milyon manat), səhiyyə xərclərinə 7,6% (19,6 milyon manat), məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanlarının saxlanılmasına 7,3% (31,5 milyon manat), sənaye, tikinti və faydalı qazıntılar xərclərinə 6,8% (227,2 milyon manat), nəqliyyat və rabitə xərclərinə 6,3% (2,2 milyon manat) çox vəsait yönəldilib.

2014-cü ilin altı ayında dövlət əsaslı vəsait qoyuluşu xərclərindən elm, təhsil, səhiyyə, sosial, mədəniyyət, idman və digər sosial-mədəni və məişət təyinatlı obyektlərin tikintisinə və yenidən qurulmasına 1 milyard 057,2 milyon manat, enerji, su və qaz təchizatı, nəqliyyat, kommunal, meliorasiya infrastrukturlarının tikintisinə, yenidən qurulmasına və digər sahələrə 2 milyard 315,8 milyon manat vəsait yönəldilib.

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən investisiya layihələrinin maliyyələşdirilməsinə 37,1 milyon manat vəsait sərf edilib.

Dövlət büdcəsinin xərcləri cari ilin aprel-iyun ayları üzrə 4 milyard 349,5 milyon manat icra olunub. Dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan təşkilatların əsaslandırılmış xərc sifarişləri öz maliyyə təminatını tapıb.

**İcmal büdcə**

2014-cü ilin altı ayında icmal büdcənin gəlirləri 11 milyard 537,4 milyon manat icra edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 280,8 milyon manat və ya 2,5% çoxdur. İcmal büdcənin xərcləri 9 milyard 913,1 milyon manat icra olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 94,9 milyon manat və ya 1% çoxdur.

## Vergi ödəyicilərinin nəzərinə!

*Əmək Məcəlləsinə edilmiş dəyişikliyə əsasən əmək müqavilələrinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemində müvafiq bildirişin qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra hüquqi qüvvəyə minir. Həmin Qanunla əmək müqaviləsi bildirişini elektron informasiya sisteminə daxil etmək işəgötürənin vəzifəsi kimi müəyyən edilmişdir.*

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənlərin və ya onların səlahiyyət verdiyi şəxslərin gücləndirilmiş elektron imzası, o cümlədən ASAN İmza olmalıdır. Vergi ödəyiciləri ASAN İmza sertifikatı üçün nömrəni Azərbaycanın hər üç mobil operatorunun nümayəndəliklərindən 18 manat ödəməklə əldə edə və vergi ödəyicilərinə xidmət mərkəzlərinə yaxınlaşmaqla müvafiq sertifikatı ala bilərlər. Bundan sonra əmək müqavilələri elektron informasiya sisteminə daxil edilə bilər.

Vergilər Nazirliyi vergi ödəyicilərinin nəzərinə çatdırır ki, işəgötürənlər tərəfindən əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi Vergi Məcəlləsinin 58.10-cu, İnzibati Xətalar Məcəlləsinin 53.1-ci və Cinayət Məcəlləsinin 162-1-ci maddələri ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

*Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195» Çağrı Mərkəzindən əldə edə bilərsiniz.*

VERGİLƏR NAZİRLİYİ

# Plastik kartlar həyatımıza nüfuz edir

*Hər kəs yəqin ki, həyatında bir dəfə də olsa plastik kartlardan istifadə etmişdir. Bəs plastik kart nədir? Onun üstünlüyü, təhlükəsizliyi, növləri, kartla ödəniş sistemləri, internetdə plastik kartdan istifadə, terminallar vasitəsilə ödənişlər... Bu, indi çoxumuzun rastlaşdığımız reallıqlardır.*

Dünyanın istənilən nöqtəsində su sutkada 24 saat banka müraciət etmədən, bankomatlardan pul vəsaitinin çıxarılmasında, ölkə daxilində və onun hüdudlarından kənarda malların və xidmətlərin, həmçinin internet vasitəsilə həyata keçirilən «on-line» sifarişlərin ödənilməsində, kart hesabındakı hər hansı dəyişikliklər barədə ətraflı hesabatın alınması və şəxsi məsrəflərin, eləcə də gəlirlərin kart hesabı üzrə alınmış çıxarışların əsasında təhlil edilməsi və planlaşdırılmasında böyük rolu vardır. Hazırda dünyanın 200-dən artıq ölkəsində pul dövriyyəsi sahəsində plastik kartlardan istifadə edilir. Qərbin sənayecə inkişaf etmiş ölkələrində plastik kartlar daha geniş tətbiq edilir və çek kitabçaları tədricən sıxışdırılır.

İyulun 23-də «Nikoil Bank»ın keçirdiyi «Plastik kartlar həyatımızı asanlaşdırır» adlı açıq təlim kursu insanları nağdsız ödənişlərin əhəmiyyəti barədə maarifləndirmək məqsədi daşıyırdı. Bankın Strateji inkişaf şöbəsinin müdiri Rəşad Cümşüdov bildirdi ki, hələ bir ay bundan əvvəl tədbirlə bağlı bankın «facebook» səhifəsinə yerləşdirilən reklam səhifəsinə yüzlərlə könüllü iştirakçının qoşulması və qeydiyyatdan keçməsi onu göstərir ki, ictimaiyyət arasında bu mövzuya maraq güclüdür: «Məqsədimiz budur ki, əhali arasında maliyyə maarifləndirməsini artıraq, plastik kartlardan düzgün istifadə qaydalarını izah edək, gündəlik istifadə edilən və həmçinin inkişafda olan kartlar haqqında onlara dolğun məlumat verək. Təlimdə Vergilər Nazirliyi və Mərkəzi Bankın nagdsız hesablaşmaların əhatə dairəsini genişləndirmək istiqamətində gördükləri birgə tədbirlər barədə əhaliyə məlumat vermək, kartlardan, bankomatlardan, ödəniş terminallarından, POS-terminallardan istifadə qaydalarını izah etmək də nəzərdə tutulmuşdur. Bu gün vəsait ödənilməsində istifadə edilən plastik kartlar və ya ödəmə kartları insanların müasir texniki imkanlardan istifadəyə mühüm əhəmiyyət verdiyinin göstəricisidir. Bu üsul ənənəvi nağd pul vəsaiti ilə hesablaşmaqdan bir çox xüsusiyyətlərinə görə üstün hesab edilir. Vergilər Nazirliyinin də bu istiqamətdə rolu böyükdür. Ticarət obyektlərində, xidmət məkanlarında POS-terminalların olması vacibdir. Biz də müştərilərimizi maarifləndiririk ki, onlar nagdsız ödənişdən tam faizsiz, vaxt və pul itirmədən təhlükəsiz olaraq istifadə etsinlər».

Tədbirin sonunda iştirakçılara sertifikat təqdim olundu. Hədiyyə olaraq verilən bağlamada isə təlim iştirakçıları bankdan Master Card üçün kupon , eləcə də özündə bankın bütün kart məhsulları barədə qısa məlumatı əks etdirən broşürlər və bukletlər əldə etdilər.

**Fəxriyyə İKRAMQIZI**

# «İnsan inkişafı indeksi-2014» hesabatı açıqlanıb

## *Hesabatda 6 pillə irəliləyən respublikamız insan inkişafının yaxşı səviyyədə olduğu ölkələr qrupuna daxil edilib*

Birləşmiş Millətlər Təşkilatının (BMT) İnkişaf Proqramı «İnsan inkişafı indeksi-2014» hesabatını açıqlayıb. Dünya ölkələrində insanların yaşayış səviyyəsi, orta ömür uzunluğu, sosial və iqtisadi imkanlar, adambaşına düşən ÜDM, əmək ehtiyatları, sosial təminat, elm, təhsil, mədəniyyət, səhiyyə, ev təsərrüfatlarının vəziyyəti, ətraf mühit, infrastruktur, ticarət, xidmət, insanların məşğulluğu, yaşayış tərzi, istehlak bazarı və digər amillərin nəzərə alındığı hesabatda Azərbaycanın mövqeyi 2013-cü illə müqayisədə 6 pillə yaxşılaşıb və respublikamızın adı 187 ölkə arasında 76-cı yerdə göstərilib və insan inkişafının yaxşı səviyyədə olduğu ölkələr qrupuna daxil edilib.

Sənədə əsasən, Azərbaycanda adambaşına düşən illik ümumi daxili məhsul 15,725 dollar təşkil edir ki, bu da orta gəlirli ölkələr qrupunun yüksək həddidir.

edilməsidir. Azərbaycanın bu sahədə əldə etdiyi mühüm göstəricilər müxtəlif beynəlxalq təşkilatların, o cümlədən nüfuzlu reytinq agentliklərinin, eləcə də BMT-nin İnkişaf Proqramının hesabatlarında da öz real əksini tapır. Xüsusilə də respublikamız BMT-nin qəbul etdiyi Minilliyin İnkişaf Hədəfləri çərçivəsində bir sıra istiqamətlər üzrə ciddi irəliləyişlər əldə edib: «Azərbaycan 2003-2013-cü illər ərzində postsovet məkanında insan inkişafı indeksinə görə illik 1,79 artım dərəcəsi ilə ən yüksək göstəriciyə nail olub. 2005-ci ildə bu göstərici üzrə 101-ci yerdə qərarlaşan respublikamız öz mövqeyini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb və hər il ən azı 5 pillə irəliləyib. Azərbaycan həmin dövr ərzində insan inkişafı indeksinin artım səviyyəsinə görə orta dünya göstəricisini iki dəfə qabaqlayan 15 ölkə sırasında olub. Təhlillər göstərir ki, iqtisadiyyatı sürətlə milyon iş yeri açılıb. Yoxsulluğun səviyyəsi 6%-ə, işsizliyin səviyyəsi isə 5,2%-ə qədər azalıb.

On ildə ölkə iqtisadiyyatına 132 milyard dollar investisiya qoyulub, xarici ticarət dövriyyəsi 6,4 dəfə, qeyri-neft ixracı 4,5 dəfə artıb. Ümumi daxili məhsulda özəl bölmənin payı 83%, məşğulluqda isə 73,9% olub. Bu müddətdə 19,4 min sahibkarlıq subyektinə 1,2 milyard manat məbləğində güzəştli dövlət kreditləri verilib və həmin kreditlər 113 min yeni iş yerinin açılmasına imkan yaradıb. 2003-2013-cü illərdə dövlət büdcəsinin gəlirləri 16 dəfə, vergi daxilolmaları 8,1 dəfə, dövlət büdcəsinin xərcləri 13,9 dəfə, əhalinin əmanətləri 24 dəfə, bank aktivləri isə 18 dəfə artıb.

O.Məmmədov hesab edir ki, müasir dövrdə insan inkişafının əsas xüsusiyyətləri elmtutumlu və rəqabətqabiliyyətli iqtisadiyyatın güclənməsi, in-

*2003-2013-cü illərdə dövlət büdcəsinin gəlirləri 16 dəfə, vergi daxilolmaları 8,1 dəfə, dövlət büdcəsinin xərcləri 13,9 dəfə, əhalinin əmanətləri 24 dəfə, bank aktivləri isə 18 dəfə artıb*

BMT İnkişaf Proqramının ekspertlərinin qənaətinə görə, son 10 ildə Azərbaycan bir çox iqtisadi, sosial, demoqrafik, sosial-humanitar göstəricilər üzrə əhəmiyyətli irəliləyişlər əldə edib. Respublikamız ÜDM-in artımı, insanların gəlir əldə etmək imkanlarının yaxşılaşması, məşğulluğun artırılması, yoxsulluq səviyyəsinin azaldılması, vətəndaşların sosial rifah halının yüksəldilməsi, keyfiyyətli təhsil, səhiyyə və sosial infrastruktur xidmətləri ilə əhatə olunması baxımından mühüm nailiyyətlərə nail olub. İnsanların həyat şəraiti yaxşılaşıb, adambaşına düşən milli gəlir 4 dəfədən çox artıb. Təhsil alan hər nəfərə düşən xərclər bir neçə dəfə yüksəlib. Hazırda respublikada yaşı 25-dən yuxarı olan kişilərin 95,7%-i, qadınların isə 90% ən azı orta təhsillidir. Ölkədə əhalinin savadlılıq səviyyəsi 99,8% təşkil edir. Vətəndaşların informasiya-kommunikasiya texnologiyalarından istifadəsində səmərəlilik 5-7 dəfə artıb.

İqtisadçı Oqtay Məmmədovun fikrincə, müasir dövrdə sosial ədalət meyarını rəhbər tutan hər bir dövlətin qarşıya qoyduğu ali məqsəd vətəndaş amilinin tərəqqisi, insanlar üçün maksimum firavan yaşayış şəraitinin təmin inkişaf edən ölkələrin heç də hamısı Azərbaycan kimi insan inkişafı indeksini yaxşılaşdıra bilmir. Məsələn, son illər iqtisadiyyatları sürətlə artan Çin, Braziliya və Türkiyə kimi dövlətlər insan inkişafı indeksinə görə Azərbaycandan xeyli geridə qalırlar. Bu müqayisə Azərbaycan hökumətinin iqtisadi müstəvidə əldə etdiyi nəticələrin insanların sosial rifahı müstəvisinə uğurla transformasiya etdiyinin göstəricisidir».

İqtisadçının fikrincə, Azərbaycan hesabatın bir sıra indeksləri üzrə daha yaxşı mövqedə qərarlaşıb. Məsələn, «qeyri-bərabər bölgü də nəzərə alınmaqla adambaşına düşən gəlir» səviyyəsinə görə Azərbaycan dünyanın 50 ən güclü inkişaf etmiş ölkəsi sırasındadır. Təbii ki, bu faktorların birbaşa əsas səbəbi milli inkişaf göstəriciləri, xüsusilə də ÜDM-in artım tempi ilə bağlıdır. 2003-2013-cü illərdə Azərbaycanda ÜDM hər il orta hesabla 11% artıb. Qeyd olunan dövrdə Azərbaycanda ümumi daxili məhsul 3,4 dəfə, qeyri-neft sektoru isə 2,7 dəfə yüksəlib. Ölkənin strateji valyuta ehtiyatları 30 dəfə artaraq 50 milyard dollara çatıb. Əhalinin rifah halı əhəmiyyətli dərəcədə yaxşılaşıb, gəlirləri 6,1 dəfə artıb, 1,2 san kapitalının yüksəlməsi ilə bağlıdır: «Hər bir cəmiyyətin inkişafı bilavasitə insanın fəaliyyəti, əməyinin məhsuldarlığı ilə əlaqəli olduğundan, insana qoyulan investisiya - insan kapitalı xüsusi əhəmiyyət malikdir. Hazırda dünyada keyfiyyətli insan kapitalı uğrunda rəqabət dərin xarakter alıb və insan ən zəngin kapital kimi dünya innovasiya inkişafının əsas təməlini təşkil edir. İnsan kapitalı təhsil, elm, səhiyyə, mədəniyyət, incəsənət, informasiya xidmətinə əsaslanmaqla formalaşır. İnsan kapitalının kompleks sahələri əhatə etməklə istər iqtisadi, istər sosial, istərsə də siyasi-hüquqi sahəyə geniş təsir imkanları var. Sadalanan amillər insanın cəmiyyətdəki mövqeyini müəyyənləşdirməklə həyat səviyyəsini xarakterizə edir. Zəngin innovativ bilik və bacarıq sosial-iqtisadi inkişafa təkan verməklə ölkənin dünyada nüfuzunu artırır, xalqın həyat səviyyəsinin, milli təhlükəsizliyinin təminatını müəyyən edir. Bu baxımdan, beynəlxalq qurumlar insan kapitalını həmin parametrlərə görə ölçərək, milli sərvətin tərkibində istehsal və təbii resurslarla yanaşı, insan kapitalını da hesablayırlar».

**Elbrus CƏFƏRLİ**

# «ASAN imza» vasitəsilə əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması

Əmək Məcəlləsinə edilən dəyişikliklərdən sonra əmək münasibətləri əmək müqaviləsi bağlandığı andan deyil, elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra yaranır. Bu səbəbdən də təşkilati-hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq bütün işəgötürənlər əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi ilə bağlı elektron informasiya sistemində əmək müqaviləsi bildirişini qeydiyyatdan keçirməlidirlər.

İyul ayının 1-dən «Elektron hökumət» (www.e-gov.az) portalında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin «Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi», həmçinin «Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi» xidmətləri yerləşdirilmişdir. Artıq «ASAN imza» - mobil elektron imza vasitəsilə təşkilatın səlahiyyətli nümayəndələri tərəfindən əməkdaşlarla bağlanan əmək müqavilələri haqqında məlumatların daxil edilməsi və sonradan bu məlumatların işçilər tərəfindən əldə edilməsi mümkündür.

Vergilər Nazirliyinin rəsmi internet səhifəsində «ASAN imza» - mobil elektron imza vasitəsilə əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması barədə təlimat yerləşdirilib. Təlimatda səlahiyyətli nümayəndəni təyin edəcək rəhbər şəxslər və bildirişlər haqqında məlumatların «ASAN imza» vasitəsi ilə «Elektron hökumət» portalına daxil edilməsini həyata keçirən səlahiyyətli nümayəndələr üçün həmin proses əyani şəkildə ətraflı izah edilir.

*Vergilər Nazirliyinin rəsmi internet səhifəsində «ASAN imza» - mobil elektron imza vasitəsilə əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması barədə təlimat yerləşdirilib*

Təlimatda yer alan - «ASAN imza» vasitəsilə rəhbər şəxs tərəfindən əmək müqaviləsi bildirişlərinin qeydiyyatını həyata keçirəcək səlahiyyətli nümayəndənin təyin edilməsi prosesi» adlı bölmədə şirkətin rəhbəri tərəfindən «ASAN imza» vasitəsilə əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması prosesini həyata keçirəcək işçiyə bu səlahiyyətin verilməsi prosesi mərhələlərlə izah edilir. Öncə şirkətin rəhbəri «Elektron hökumət» (www.e-gov.az) portalına daxil olaraq istifadəçi girişini «ASAN imza» vasitəsilə həyata keçirir. Giriş zamanı «Mobil nömrə» və «İstifadəçi ID»si daxil edilir. Sistem tərəfindən mobil telefona gələn təhlükəsizlik kodu ilə portaldakı kod müqayisə edilir, kodlar uyğun gəldikdə «ASAN imza PİN1» ilə təsdiq edilir. Daha sonra portalın yuxarı hissəsində mövcud şirkətin nümayəndə rolu seçilir və növbəti addımda portaldan «E-xidmətlər», daha sonra isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin «Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi» xidməti seçilir. Açılan pəncərədə «Əmək müqaviləsi bildirişlərinin daxil edilməsi üçün səlahiyyətlərin verilməsi» bölməsi qeyd edilir. Növbəti pəncərədə qeydiyyatdan keçiriləcək səlahiyyətli nümayəndənin məlumatları, həmçinin etibarnamənin müddətli və ya müddətsiz olduğu göstərilir.

«Səlahiyyətli nümayəndə tərəfindən «ASAN imza» vasitəsilə əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması prosesi» bölməsində «ASAN imza» vasitəsilə əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınmasını həyata keçirmək üçün şirkətin rəhbəri tərəfindən təyin olunan səlahiyyətli nümayəndənin iş prosesi mərhələli şəkildə izah edilir. İlk olaraq səlahiyyətli nümayəndə yuxarıda qeyd olunan proseslərə uyğun olaraq «ASAN imza» vasitəsi ilə portala daxil olur, mövcud şirkətin nümayəndə rolunu qeyd edir və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin «Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi» xidmətini seçir. Növbəti mərhələdə səlahiyyətli nümayəndə əməkdaşların əmək müqaviləsi bildirişləri haqqında məlumatları daxil etmək üçün «Əmək müqaviləsinin bağlanılması ilə bağlı əmək müqaviləsi bildirişinin daxil edilməsi» bölməsini seçir. Açılan pəncərədə səlahiyyətli şəxs Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tətbiq etdiyi qaydalara əsasən əməkdaşların məlumatlarını daxil edərək bildirişləri imzalayır. Səlahiyyətli nümayəndə əvvəlki prosesdə daxil olunmuş məlumatları yoxlamaq və imzalanmamış bildirişləri «ASAN imza» vasitəsilə imzalamaq üçün «Əmək müqaviləsi bildirişinin reyestri» bölməsinə daxil olur. Açılan pəncərədə imzalanacaq bildirişi seçərək «Bildirişi imzala» düyməsini qeyd edir. Bu zaman imzalamaq üçün sistemin səlahiyyətlinin mobil telefonuna göndərdiyi təhlükəsizlik kodu ilə portaldakı kod müqayisə edilir, kodlar uyğun gəldikdə «ASAN imza PİN2» ilə təsdiq edilir. Təsdiqləndikdən sonra sistem bildirişin müvəffəqiyyətlə imzalanması haqqında məlumat verir. Bildiriş imzalandıqdan sonra imzalama statusu dəyişilir və imzalama tarixi ilə birlikdə reyestrdə əks olunur.

**AYTƏN**

# Azərbaycanda xarici şirkətlərin sayı 7 minə çatıb

## *Səmərəli vergi siyasəti investorların marağına səbəb olub*

*Azərbaycandakı əlverişli investisiya mühiti xarici sərmayəçilərin fəallığının yüksəlməsinə və nəticədə sayının artmasına səbəb olub. Son 10 ildə xarici investorların sayı 2 dəfədən çox artıb və onlar ölkə iqtisadiyyatının bir çox sahələrində təmsil olunurlar.*

Hazırda Azərbaycanda 6857 xarici investisiyalı müəssisə fəaliyyət göstərir. İqtisadiyyat və sənaye naziri Şahin Mustafayev bildirib ki, xarici şirkətlərin 2464-ü Türkiyə, 570-i Rusiya, 541-i Böyük Britaniya mənşəli investisiyalar hesabına yaradılıb. Həmin şirkətlər Azərbaycanda dövlət əsaslı vəsait hesabına həyata keçirilən infrastruktur və digər layihələrdə podratçı, subpodratçı qismində də fəal iştirak edirlər. Məsələn, Türkiyə şirkətləri müqavilə dəyəri 10,4 milyard dollar təşkil edən 153 layihəyə, Çexiya şirkətləri müqavilə dəyəri 2 milyard dollar olan 6 layihəyə, Fransa şirkətləri müqavilə dəyəri 1,8 milyard dollar olan 22 layihəyə cəlb olunub.

Ş.Mustafayevin sözlərinə görə, davamlı iqtisadi inkişaf, maliyyə imkanlarının artması, özəl sektorun inkişafı Azərbaycanı eyni zamanda investisiya ixracatçısına çevirib. Türkiyə, Gürcüstan, Rusiya, Monteneqro, Serbiya, İsveçrə və digər ölkələrə əhəmiyyətli həcmlərdə investisiya yatırılıb. Azərbaycan şirkətlərinin potensialı və peşəkarlığı xeyli artıb, bir sıra ölkələrdə, o cümlədən Avropada mühüm infrastruktur layihələrinin icrasında özəl şirkətlərimiz fəallıq göstərirlər.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun rəhbəri Rüfət Məmmədovun sözlərinə görə, ölkəmizdə bütün investorlar üçün azad və şəffaf rəqabət şəraitinin təmin edilməsi hökumətin əsas prioritetlərindəndir. Son illərdə azad biznes mühitinin daha da yaxşılaşdırılması və xarici sərmayəçilərin hüquq və mənafelərinin qorunması ilə bağlı gücləndirilmiş tədbirlər ölkədə həyata keçirilən iqtisadi islahatların və davamlı siyasətin əsas istiqamətlərindən birinə çevrilib.

Azərbaycan hökuməti yerli sərmayəçilərlə yanaşı, xarici investorların fəaliyyətinə geniş şərait yaratmaqla respublikamıza sərmayə qoyuluşlarının artmasına nail olub. Ötən müddətdə respublikada investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara eyni iş şəraitinin yaradılması, əldə edilmiş mənfəətdən maneəsiz istifadə olunması ilə bağlı mühüm qanunlar qəbul edilib. lİnvestisiya fəaliyyəti haqqında», lXarici investisiyaların qorunması haqqında» qanunların icrası, eləcə də Azərbaycanla bir sıra xarici dövlətlər arasında ikiqat vergitutmanın aradan qaldırılması, investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlərin qüvvəyə minməsi xarici investorların, beynəlxalq maliyyə qurumlarının və iqtisadi təşkilatların ölkəmizə olan marağının daha da artmasına əsaslı zəmin yaradıb.

Həyata keçirilən sistemli tədbirlər ölkəmizdə azad rəqabət mühitinin güclənməsinə səbəb olub və bu, sərmayə qoyuluşlarının dinamikasına mühüm təsir göstərib. Son 20 ildə Azərbaycan iqtisadiyyatına yatırılan ümumi sərmayələrin həcmi 140 milyard dollara çatıb, onun da təxminən 55-60%-i xarici sərmayələrin payına düşür.

Yerli və xarici sərmayələrə dövlət təminatının gücləndirilməsi, habelə biznes strukturlarının müştərək layihələrə marağının artırılması məqsədilə yaradılmış Azərbaycan İnvestisiya Şirkətinin (AİŞ) bu istiqamətdəki fəaliyyəti də praktik nəticələr verir. Şirkət Azərbaycan Respublikası Prezidentinin 30 mart 2006-ci il tarixli sərəncamına əsasən, investisiya qoyuluşları vasitəsilə qeyri-neft sektorunun inkişaf etdirilməsi məqsədilə yaradılıb. AİŞ ötən illərdə yerli və xarici investorlarla birgə bir neçə böyük layihələr həyata keçirib, bu günə kimi ölkə iqtisadiyyatına 90 milyon manata yaxın investisiya qoyub. Qurumun təşəbbüskarı olduğu layihələrə xarici və yerli investorlar 900 milyon manatdan çox investisiya yatırıblar. Real sektora birbaşa investisiya qoyuluşu ilə yanaşı, AİŞ birgə investisiya fondları da təsis edir. 2008-ci ildə İslam İnkişaf Bankı və Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası ilə birgə təsis olunmuş lXəzər Beynəlxalq İnvestisiya Şirkəti» QSC ölkə iqtisadiyyatının qeyri-neft sektorunun müxtəlif sahələrinə investisiya qoyuluşları edib.

Ölkəmizdə həyata keçirilən səmərəli vergi siyasəti də xarici sərmayələrin axınına geniş şərait yaradıb. Respublikamızın beynəlxalq müqavilələrə qoşulması investisiyaların təşviqi və qorunması, gəlirlərə və əmlaka vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması xarici investisiyaların ölkə iqtisadiyyatına axınını stimullaşdırıb. Son illərdə hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatının elektron qaydada həyata keçirilməsi ölkənin biznes mühitinə müsbət təsir göstərib. Fiziki və hüquqi şəxslərin vergi uçotunun Vergilər Nazirliyi tərəfindən elektron qaydada həyata keçirilməsi vətəndaşların sahibkarlıq fəaliyyətinə başlamasını xeyli asanlaşdırıb. Qanunvericiliyə edilmiş dəyişikliklərə əsasən, hüquqi şəxslərin elektron dövlət qeydiyyatı rüsumsuz həyata keçirilir. Yeni müəssisə yaratmaq istəyən sahibkarlar qeydiyyat prosesinə cəmi bir neçə dəqiqə vaxt sərf edirlər.

*Fiziki və hüquqi şəxslərin vergi uçotunun Vergilər Nazirliyi tərəfindən elektron qaydada həyata keçirilməsi vətəndaşların sahibkarlıq fəaliyyətinə başlamasını xeyli asanlaşdırıb*

Həyata keçirilən bu və digər islahatlar nəticəsində regionlarda yerli sərmayəçilərlə yanaşı, xarici iş adamlarının da sayı artıb, sərmayə qoyuluşları çoxalıb. 2004-2013-cü illər ərzində Azərbaycan regionlarına xarici investorlar tərəfindən 18 milyard manat sərmayə yönəldilib. Həmin dövrdə ölkə üzrə 25 minə yaxın müəssisə açılıb ki, onların 4 mindən çoxu əcnəbi iş adamlarına məxsusdur.

Respublikamızdakı əlverişli sərmayə iqlimi beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Azərbaycan Dünya İqtisadi Forumunun «Qlobal Rəqabət Qabiliyyəti İndeksi 2013-2014» hesabatında 7 pillə irəliləyərək 39-cu yerə layiq görülüb. Hesabatda sərmayələrin qorunması altgöstəricisi üzrə ölkəmiz ilk iyirmiliyə daxil olub.

**Elbrus CƏFƏRLİ**



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# Vergi və bazar münasibətləri

Dövlətin fiskal siyasəti baxımından vergilərə, adətən, dövlət xərclərinin maliyyələşdirilməsi və gəlirlərin bazar iqtisadiyyatı münasibətləri çərçivəsinə sığmayan imperativ qaydada bölüşdürülməsi (yenidən bölüşdürülməsi) sahəsində tətbiq olunan məcburi alət kimi baxılır. Buna görə də makroiqtisadi səviyyədə vergitutmanın bazar metodları ilə idarə olunmasının mümkünlüyü inkar edilmiş olur.

Qeyd etmək lazımdır ki, beynılxalq aləmdə vergilərin əsas mahiyyətinə yanaşmalar eynidir. Azərbaycan Respublikasının Vergi Məcəlləsində də vergilərə dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədilə vergi ödəyicilərini mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəkilində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödəniş kimi baxılır. Hüquqi nöqteyi-nəzərdən yanaşdıqda vergilərin mahiyyəti verginin ayrıca götürülmüş vergi ödəyicisi tərəfindən qanunvericiliklə müəyyən olunmuş müddətdə və qaydada ödənilməsindən ibarətdir. Bununla belə, vergilərin iqtisadi mahiyyəti daha dərin köklərə malikdir və çoxşaxəlidir.

*Vergi münasibətlərinin ilk növbədə öz məcburi hüquqi forması var və bu formadan kənara çıxdıqda o, öz varlığını itirmiş olur*

Vergi, ilk növbədə, obyektiv maliyyə (pul) kateqoriyasıdır. Onun mövcudluğunun xüsusi forması və daxili obyektiv məzmunu var. Ümumiyyətlə, verginin yaranmasının əsas səbəblərindən biri dövlətçiliyin inkişaf etdirilməsi ilə bağlı olmuşdur: istənilən dövlətin öz funksiyalarının yerinə yetirilməsi üçün müəyyən maliyyə resursları tələb olunur. Buradan da belə bir fikir irəli sürülür ki, dövlət olmasaydı, vergi olmazdı və ya əksinə, vergisiz dövlət ola bilməzdi. Beləliklə, vergi münasibətlərinin ilk növbədə öz məcburi hüquqi forması var və bu formadan kənara çıxdıqda onlar öz varlığını itirmiş olur. Məcburi hüquqi forması vergilərin əsas əlamətlərindən biri olsa da, o xüsusi obyektiv mahiyyətə malikdir. Vergilərin normal qaydada tətbiqinin iqtisadi əsası mal və pul münasibətləri ilə müəyyən olunur və bu münasibətlərin inkişaf səviyyəsindən asılıdır. Odur ki, həmişə daha çox inkişaf etmiş bazar münasibətlərinə, bazar münasibətlərinin inkişaf səviyyəsinə müvafiq vergi sistemi uyğun gəlir. Çünki vergilərin maliyyə kateqoriyası kimi qəbul olunan məzmununun obyektivliyi sırf pul münasibətləri ilə müəyyən edilir. Beləliklə, vergi münasibətlərini məcburi, rəsmi, hüquqi və imperativ formada çıxış edən pul münasibətləri kimi də qəbul etmək olar.

Vergilər bazarın və pul-bazar təsərrüfatının ayrılmaz atributu olduğu üçün onun mahiyyətinə və idarə olunması xüsusiyyətlərinə obyektiv qanunlarla, eləcə də mal-pul münasibətlərinin yaranmasının qanunauyğunluğu ilə sıx əlaqədə baxmaq lazımdır. Bu nöqteyi-nəzərdən vergilərə istehsalın bərpası prosesinin dəyərli iştirakçılarından biri kimi cəmiyyətə dövlətin verdiyi ictimai nemətlərin qiyməti kimi baxılır.

Bazar iqtisadiyyatı şəraitində dövlət makroiqtisadi təsərrüfat subyekti kimi fəaliyyət göstərməklə, ictimai istehsalın bərpa proseslərində bölünən və bölünməz ictimai nemətlər yaradaraq cəmiyyətə təqdim edən zaman öz fəaliyyətində bazarın qanun və qaydalarını nəzərə almağa məcburdur. Bu zaman ictimai nemətlərin təqdim edilməsi (bölüşdürülməsi) vergilərin ödənilməsi kimi məcburi formada həyata keçirilir.

Dövlət öz xidmətlərini istehsal və təqdim edən təsərrüfat subyekti kimi çıxış edərkən, makroiqtisadi aspektdən yanaşsaq, vergilərə dövlətin çəkdiyi xərclərin müqabilində cəmiyyətin ödədiyi haqq kimi qiymət vermək olar. Belə bir spesifik «satış» prosesi uzun və fasiləsiz davam edən formaya malik olmaqla ekvivalentlik (əvəzini qaytarma) xarakterini alır. Bu zaman icmal vergilər dövlətin təqdim etdiyi icmal xidmətlərin qiymətini əks etdirir.

Bazar iqtisadiyytı şəraitində vergilər həm pulun ödəniş vasitəsi, həm də onun ölçü vahidi olması funksiyalarından irəli gələrək inkişaf etmişdir. Beləliklə, vergilər dövlətin öz funksiyalarının yerinə yetirilməsi ilə əlaqədar təqdim etdiyi xidmətlərin spesifik, irrosional və inhisarçı qiyməti deməkdir. Dövlət xidmətlərinin qiyməti kimi vergilərin əsas xüsusiyyəti ondan ibarətdir ki, onun ekvivalentlik xassələri hər hansı vergi ödənişinin aparılmasında deyil, yalnız dövlətə gəlir və xərcələrin makroiqtisadi səviyyədə uçotu aparılan «hesablaşma hesabı» - büdcəsi olan təsərrüfat subyekti kimi baxılması zamanı özünü göstərir.

Dövlətin göstərdiyi xidmətlərin qiymətləri tələb və təklifin əsasında formalaşarkən istənilən cəmiyyətdə maraqların toqquşması baş verir və bu da son nəticədə «normal» effektin əldə olunması ilə nəticələnir. Optimal vergi dərəcələri müəyyən olunmaqla razılaşdırılmış qiymət yaranır və onun əsasında iqtisadi inkişafın hər bir mərhələsinə uyğun gələn rasional vergi sistemi qurulur.

Razılaşdırılmış qiymətə icmal verginin dərəcəsi kimi də baxmaq olar. Tələb və təklifin təsiri altında formalaşan icmal vergi dərəcəsi vergi daxilolmalarının ümumi daxili məhsulda və ya əlavə yaradılmış dəyərdə xüsusi çəkisi ilə qiymətləndirilir. Bu, çox vaxt vergi yükü də adlandırılır.

Yuxarıda göstərilənlər və vergilərin qiymət xüsusiyyətləri, vergi proseslərinin bazar qanunlarına və qanunauyğunluqlarına tabe olması belə nəticəyə gəlməyə əsas verir ki, vahid bazar prinsiplərinə və qaydalarına adekvat olan vergi inzibatçılığı sisteminin yaradılması təkcə təsərrüfat subyektlərini deyil, həm də dövlət səviyyəsini nəzərə almalıdır.

# Mərkəzləşdirilmiş Kredit Reyestrinə sorğular artır

Ölkənin bank sektorunda kredit öhdəliyi olan fiziki və hüquqi şəxslərin məbləğindən asılı olmayaraq bütün kreditləri haqqında məlumatları Mərkəzləşdirilmiş Kredit Reyestri (MKR) Xidmətində toplanılır. Mərkəzi Bankda 2005-ci ildən yaradılan bu xidmət bankların və bank olmayan kredit təşkilatlarının (BOKT) cari və potensial borcalanlarının ödəmə qabiliyyəti haqqında məlumatlar almaq, borcalanların icra intizamını və borcalma nüfuzunun qorunmasını təşviq etmək, habelə bankların və BOKT-ların kredit risklərini azaltmaq məqsədi daşıyır. MKR-ın məlumatlardan istifadə hüququ kredit müraciətçisini qiymətləndirmək məqsədilə yalnız banklara, BOKT-lara, habelə haqqında məlumat toplanılmış şəxslərə məxsusdur.

Reyestrdə borcalanların həm aktiv, həm də tam ödənilmiş kreditləri haqqında məlumatlar saxlanılır. Məlumatların tərkibi borcalanın eyniləşdirmə məlumatları, kredit və kreditin təminatı haqqında məlumatlardan ibarətdir. Reyestrdə məlumatlar ayda bir dəfə hər ayın ilk 4 iş günü ərzində yenilənir. Yeni verilmiş kreditlər isə 2 iş günü ərzində MKR-ə göndərilir.

MKR-ə sorğular banklar və BOKT-lar tərəfindən cari borcalanları haqqında sorğu edilən şəxsin razılığı tələb olunmadan, potensial borcalanları və zaminləri haqqında isə yalnız barəsində sorğu edilən şəxsin imzaladığı yazılı razılıq əsasında edilir. Banklar və bank olmayan kredit təşkilatları MKR-dən məlumatları real vaxt rejimində elektron formada, borcalanlar isə sorğu əsasında əldə edə bilərlər. Banklar və BOKT-lar üçün hər bir sorğunun qiyməti 1 manatdır. Banklar və BOKT-lar istisna olmaqla digər şəxslər MKR-dən məlumatları şəxsən və ya vəkalətli nümayəndəsi vasitəsilə müraciət etməklə, elektron imza ilə təsdiq edilmiş elektron formada müraciət etməklə, notariat qaydasında təsdiq edilmiş distant sorğu ilə əldə edə bilərlər. Fiziki və hüquqi şəxslər özləri haqqında məlumatları elektron formada əldə etmək üçün mkr@cbar.az ünvanına elektron imza ilə təsdiq edilmiş ərizə vasitəsilə müraciət etməklə ala bilərlər. Fiziki və hüquqi şəxslər özləri haqqında MKR-də olan məlumatları Mərkəzi Banka, habelə onun ərazi idarələrinə müraciət etməklə də əldə edə bilərlər. Fiziki və hüquqi şəxslərə özləri haqqında sorğu olunan məlumatlar MKR-ə sorğunun daxil olduğu gündən 3 iş günü ərzində təqdim edilir.

MKR-ə təqdim edilən məlumatların həqiqiliyi məlumat təchizatçıları tərəfindən təmin edilməlidir: hər bir şəxsin özü haqqında toplanmış məlumatlardakı qeyri-dəqiq məlumatlardan şikayət etmək hüququ vardır. MKR-də borcalanlar haqqında toplanılan və əldə edilən məlumatlara Mülki Məcəllə və «Banklar haqqında» Qanun ilə müəyyən edilən bank sirri rejimi tətbiq olunur.

Bu ilin ikinci rübünün yekunlarına görə, MKR-ə edilən sorğuların sayında artım var. Hesabat dövründə MKR-dən 41 bank və 31 BOKT istifadə edib. Dövr ərzində reyestrdə 1.421310, o cümlədən banklar və BOKT-lər tərəfindən 1.398.083 sorğu verilmişdir. Ötən ilin eyni dövrü ilə müqayisədə MKR-ə edilən sorğuların sayı 1,43 dəfə artmışdır.

**AYTƏN**

# Banklar sahibkarlara münasibəti dəyişməlidir

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bankların sahibkarlara laqeyd münasibəti ilə bağlı məsələyə xüsusi yer ayırmış, öz tənqidi qeydlərini bildirmişdir. İqtisadiyyatın inkişafında sahibkarlıq sektorunun mühüm roluna toxunan dövlət başçısı hökumətin sahibkarlara maliyyə dəstəyini artırmasına baxmayaraq, bankların bu prosesdə iştirakını qeyri-qənaətbəxş hesab etdiyinin diqqətə çatdırmış, bu məsələ ilə bağlı özəl banklarda çox ciddi islahatların aparılmalı olduğunu vurğulamışdır.

Ölkə başçısı bildirmişdir ki, hər il dövlət büdcəsindən banklara 300 milyon manat pul ayrılır, həmin vəsaitlər güzəştli şərtlərlə sahibkarlara verilir. Bu vəsaitlər, əslində, bankların öz resursları deyil, dövlətin maliyyəsidir. Banklar burada vasitəçi kimi iştirak edərək pul qazanırlar: «Bu, Azərbaycan dövlətinin özəl banklara olan böyük bir imtiyazıdır, güzəştidir. Onlar nə üçün iqtisadiyyatın real sektoruna kreditlər ayırmırlar? Nə üçün daha çox istehlak kreditləri verirlər? Onlar da öz məsuliyyətini dərk etməlidirlər. Dövlət siyasətini, xüsusilə ölkəmizin inkişafı ilə bağlı olan siyasəti görərək kənarda durmaq nə dərəcədə mümkündür?! Əgər belədirsə, dövlət o banklara niyə kömək göstərməlidir?!».

Bankların öz resursları hesabına iqtisadiyyata kredit qoyuluşlarında fəal iştirak etmədiklərini bildirən iqtisadçı Aydın Hüseynovun fikrincə, banklar daha çox müxtəlif biznes şirkətləri, kommersiya müəssisələri, avtomobil və məişət malları satan ticarət mərkəzləri ilə əməkdaşlığa maraq göstərir, həmin ticarət şəbəkələrinin məhsullarının alıcısı olan vətəndaşlara istehlak kreditləri verirlər: «Son illərdə bu proses daha çox müşahidə olunur və bankların ümumi kredit portfelində istehlak kreditləri əsas yer tutur. Həmin kreditlərin böyük əksəriyyəti isə vətəndaşlara müxtəlif məişət avadanlıqları, avtomobil və digər məqsədlər üçün verilib. Bu kreditlərin bir hissəsi qaytarılmadığından problemli kreditlərə çevrilib. Bəzi özəl banklar hətta iş yerindən arayışı olmayan şəxslərə istehlak kreditləri veriblər. 2009-cu ildən bu proses daha da sürətlənib və vaxtı keçmiş kreditlərin həcmi 5 il əvvəl 2,2% idisə (240 milyon manat), hazırda 7%-ə (900 milyon manata) çatıb. Problemli kreditlərin bir milyard manata yaxınlaşması ciddi problemlər yaratdığından Mərkəzi Bank tərəfindən qaydalar sərtləşdirilib və banklara arayışsız kreditlər vermək qadağan edilib».

Mütəxəssisin fikrincə, həmin kreditlər sahibkarlara, kənd mülkiyyətçilərinə və fermerlərə verilsəydi, onların geri qaytarılması promlemi meydana çıxmazdı, əksinə, daha böyük faydası olar, regionlarda yüzlərlə təsərrüfat inkişaf edərdi: «Dövlətin görmək istədiyi bank-sahibkar modeli iqtisadiyyatın inkişafına daha çox töhfə verə bilər. Bunun üçün dövlət bütün imkanlardan istifadə edir, sahibkarlara olan diqqət və qayğını gücləndirir, inzibati orqanların onların fəaliyyətinə müdaxilə hallarının qarşısını almaq üçün sərt tədbirlər görülür, sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi üçün davamlı islahatlar keçirilir və bu sahəyə maliyyə ayrılmasının artırılması üçün müxtəlif güzəştli mexanizmlər hazırlanaraq tətbiq edilir. Bundan əlavə, bankların kredit bazarında fəal iştirakı üçün güzəştlər tətbiq olunur. Sahibkarların bank, maliyyə-kredit təşkilatlarının vəsaitlərini əldə etmək imkanlarının asanlaşması üçün Mərkəzi Bank tərəfindən ən mükəmməl və sərfəli şərtlər əsasında kredit siyasəti həyata keçirilir. Hazırda Azərbaycanda banklar üçün müəyyən olunmuş uçot dərəcələri 4,5 faiz təşkil edir ki, bu da dünyada ən yaxşı göstəricilərdən biridir. Bu faktor bankların geniş fəaliyyəti üçün əlverişli imkanlar yaradır. Bunun nəticəsində hər il bankların aktivləri artır. Hazırda ölkə banklarının məcmu aktivlərinin, yəni ümumi pul ehtiyatlarının həcmi 22 milyard manat təşkil edir ki, bu, real iqtisadiyyata kredit yönəltmək üçün böyük resursdur. Dövlətin bu əlverişli şəraiti yaratmaqda əsas məqsədi bankların iqtisadiyyatın real sektorunda fəallığını artırmağa, investisiya layihələrində iştirakının daha geniş təmin edilməsinə nail olmaqdır. Təəssüf ki, əksər banklar qeyri-neft sektorunun və regionların inkişafına, sahibkarlıq təşəbbüsünün genişləndirilməsinə böyük həcmli kreditlər verməkdə fəallıq göstərmirlər».

Mərkəzi Bankdan bildirildiyinə görə, dövlət başçısının tapşırığına uyğun olaraq araşdırmalar aparılacaq, özəl bankların iqtisadiyyatın real sektoruna vəsait qoyuluşunu stimullaşdırmaq üçün müxtəlif tədbirlər görüləcəkdir.





*Bankların sahibkarlıq sektorunda iştirakını gücləndirmək üçün tədbirlər görüləcək*

# İlin əvvəlindən sahibkarlıq subyektlərinə 153,9 milyon manat güzəştli kredit verilib

*Sahibkarların investisiya layihələrinin güzəştli qaydada maliyyələşdirilməsi davam etdirilir.*

İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondundan bildiriblər ki, 2014-cü ilin ötən dövrü ərzində ölkə üzrə 2982 sahibkarlıq subyektinin investisiya layihələrinin maliyyələşdirilməsinə 153,9 milyon manat güzəştli kredit təqdim olunub. Bu kreditlər hesabına maliyyələşdirilən layihələrin reallaşdırılması 6 min 600-dən çox yeni iş yerinin yaradılmasına imkan verib.

Ümumilikdə, indiyədək Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət proqramları çərçivəsində paytaxt qəsəbələrində sahibkarlıq subyektlərinin 851 investisiya layihəsinin maliyyələşdirilməsinə 189,9 milyon manat güzəştli kredit verilib. Kreditlər, əsasən, heyvandarlıq, logistik mərkəz, mebel, istixana konstruksiyaları, qida sənayesi avadanlığı və tikinti materialları istehsalına yönəldilib.

# TAP layihəsi Avropanın enerji ilə təminatında önəmli mənbədir

*Strateji önəm daşıyan «Trans-Adriatik Pipeline» (TAP) layihəsi Avropanın enerji ilə təmin olunması üçün önəmli mənbədir. Bu layihə İtaliya üçün də böyük əhəmiyyət kəsb edir.*

Bu sözləri İtaliya-Azərbaycan Ticarət İnstitutunun (ITAZERCOM) prezidenti Manuela Traldi AzərTAc-a müsahibəsində deyib.

M.Traldi bildirib ki, TAP layihəsi Azərbaycan ilə İtaliya arasında əlaqələrin genişlənməsinə mühüm töhfə verməkdədir. O qeyd edib ki, Avropanın qazla təmin olunması məsələsində Azərbaycanın bu layihəni seçməsi ikitərəfli əlaqələrdə yeni mərhələnin başlanmasına səbəb olub: «TAP layihəsi Avropa üçün mühüm əhəmiyyət kəsb edir. Avropa bu layihənin reallaşmasında çox maraqlıdır. Ümid edirik ki, bu layihə planlaşdırıldığı vaxtda başa çatacaq».

ITAZERCOM-un fəaliyyətinə toxunan M.Traldi qeyd edib ki, qurum Azərbaycan və İtaliya arasında əsasən iqtisadi sahədə əlaqələrin təşviqi istiqamətində tədbirlər həyata keçirir. O bildirib ki, Gələcəkdə ITAZERCOM-un fəaliyyət dairəsinin genişlənməsi çərçivəsində Bakı nümayəndəliyinin açılması da nəzərdə tutulur. «İqtisadiyyatın müxtəlif sahələri üzrə çalışan nümayəndəliklərlə birgə layihələr reallaşdırırıq. İtaliya şirkətlərinin Azərbaycanda fəaliyyət göstərmələri üçün geniş imkanlar yaradırıq. Azərbaycan və İtaliya ticarət institutları arasında çox müsbət əməkdaşlıq əlaqələrinin qurulmasına nail olmuşuq», - deyə o qeyd edib.

# Regionlarda «e-qəbul otaqları» yaradılacaq

*Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi vətəndaşların dövlət orqanlarına müraciətlərini asanlaşdırmaq məqsədilə yeni «Elektron qəbul otağı» xidmətini istifadəyə verməyə hazırlaşır*

«Dövlət qurumlarının vəzifəli şəxslərinin qəbuluna onlayn yazılmaq» və «Dövlət qurumlarına onlayn müraciət» layihəsi çərçivəsində nəzərdə tutulan bu xidmət vətəndaşların sorğu, şikayət, rəy və təkliflərinin operativ şəkildə öyrənilməsi məqsədini daşıyır. «E-qəbul otağı» yerlərdə vətəndaşlara e-xidmətlərdən geniş istifadə edə bilməsi üçün şərait yaradılmasını, onların e-imza ilə və ya kod-parolla təmin edilmələrini və maarifləndirmə xarakterli işlərin aparılmasını da həyata keçirəcək.

RYTN-nin Məlumat Hesablama Mərkəzinin (MHM) əməkdaşı İlqar Abdullayevin sözlərinə görə, layihənin həyata keçirilməsi üçün müvafiq strukturların yerli və regional bölmələrində xüsusi otaqların ayrılması, lazımi avadanlıqlarla təchiz edilməsi və tam şəkildə təlimatlandırılmış işçilərin hazırlanması nəzərdə tutulur. «Elektron qəbul otağı»nın yaradılması yerlərdə vətəndaşların «Elektron hökumət» portalının imkanlarından daha səmərəli faydalanmalarına təkan verəcək, əhalini daha çox maraqlandıran və narahat edən sahələrin, xidmətlərin və problemlərin öyrənilməsinə, bu məsələlərin operativ həllinə şərait yaradacaq. Yeni xidmət dövlət qurumlarının fəaliyyətinin səmərəliliyinin artırılmasına, şəffaflığın təmin edilməsinə, vətəndaşların hökumət orqanları ilə əlaqələrinin daha sadə və münasib elektron üsullarla həyata keçirilməsinə öz töhfəsini verəcək.

Hazırda «Elektron hökumət» portalında «Rəsmi yazışmalar» bölməsinin əhalinin istifadəsinə verilməsi üçün aparılan işlər yekunlaşmaq üzrədir. Bölmə istifadəyə verildən sonra vətəndaşlar burada qeydiyyatdan keçərək həm dövlət qurumlarının vəzifəli şəxslərinin qəbuluna yazıla, həm də istənilən dövlət qurumuna öz ərizə və şikayətlərini göndərə biləcəklər. Bu xidmət vasitəsilə qəbula yazılmalar və göndərilən şikayətlər sistem tərəfindən izlənəcək və icra müddətlərinə avtomatik nəzarət olunacaq. İcra müddətində baxılmayan müraciətlər portalda xüsusi bölmədə göstəriləcək.

Vətəndaşların dövlət orqanlarına müraciətlərinin daha operativ, dinamik və onlayn təşkili məqsədilə digər mühüm tədbirlərin həyata keçirilməsi də nəzərdə tutulur. Vətəndaşların elektron sənəd mübadiləsinin sadələşdirilməsi ilə bağlı işlərin təkmilləşdirilməsi davam etdirilir. Yaxın vaxtlarda «Elektron hökumət» portalı çərçivəsində «şəxsi kabinet»in və dövlət orqanlarına vahid müraciət imkanının yaradılması, «mobil hökumət» texnologiyalarının tətbiqi planlaşdırılır. Elektron xidmətlərdən istifadə imkanının artırılması üçün ictimai çıxış məntəqələri şəbəkəsinin genişləndirilməsi nəzərdə tutulur. «E-hökumət» proqramında dövlət orqanlarının fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsi, ictimai əhəmiyyət kəsb edən qanun layihələrinin hazırlanması prosesinə vətəndaş cəmiyyəti qurumları nümayəndələrinin cəlb edilməsi, ictimai dinləmələrin keçirilməsi, vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq şəbəkələrinin yaradılması da əsas tədbirlər sırasındadır. Dövlət orqanları tərəfindən «Açıq qapı» vətəndaş forumları keçiriləcək, ictimai maraq kəsb edən qərarların qəbul edilməsi prosesində ictimaiyyətin iştirakını genişləndirmək vasitəsi kimi internet səhifələrindən istifadə olunacaq.

**ELBRUS**

aktual

# Sahibkarların maraqları qorunur

**«Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun 12.1-ci maddəsinə əsasən, yoxlayıcı orqan tərəfindən hesabat dövründə sahibkarlar üçün daha aktual suallar önə çəkilməklə, izah edilməsi tələb olunan normativ hüquqi aktların müddəaları ilə bağlı məsləhətlər verilir və görülmüş işlər barədə illik hesabatlar hazırlanır.**

**Vergi ödəyiciləri üçün daha aktual olan istiqamətlər barədə məlumatlandırma işləri aparmaq məqsədilə qəzetimizin bu buraxılışından məlumatlandırma formalarını təqdim edirik.**

## *Vergi yoxlaması aktı ilə və ya onun hər hansı bir hissəsi ilə razılaşmayan vergi ödəyicisinin hüquq və vəzifələri*

Səyyar vergi yoxlamasının nəticələri üzrə vergi orqanlarının səlahiyyətli vəzifəli şəxsləri tərəfindən müəyyən edilmiş formada vergi yoxlaması aktı tərtib edilərək yoxlanılan vergi ödəyicisi tərəfindən imzalanır və akt tərtib edildiyi tarixdən sonra beş gündən gec olmayaraq vergi ödəyicisinə verilir və ya göndərilir. Vergi ödəyicisi vergi yoxlaması aktı və ya onun hər hansı bir hissəsi ilə razılaşmadıqda vergi yoxlaması aktının verilməsi günündən 30 gün müddətində müvafiq vergi orqanına aktı imzalamamasının səbəblərini izah edə, yaxud akta və ya onun ayrı-ayrı hissələrinə öz etirazını yazılı surətdə bildirə bilər. Bu halda vergi ödəyicisinin yoxlama aktını imzalamamasını və ya etirazını akta öz yazılı izahatını (etirazını) təsdiq edən sənədlərin surətini əlavə edərək vergi orqanına təqdim etmək hüququ vardır.

Vergi ödəyicisi tərəfindən vergi yoxlaması aktı üzrə yazılı izahatlar və ya etirazlar təqdim edildikdə yoxlamanın materialları vergi ödəyicisinin vəzifəli şəxslərinin və ya fərdi sahibkarın və (və ya) onların nümayəndələrinin iştirakı ilə baxılır.

Bildiririk ki, vergi ödəyicisi ona əvvəlcədən məlumat verilməsinə baxmayaraq, üzrlü səbəb olmadan gəlməyibsə, yoxlamanın materiallarına, vergi ödəyicisi tərəfindən təqdim edilən etirazlara, izahatlara, digər sənəd və materiallara onun iştirakı olmadan baxılır.

*Rubrikanı Vergi ödəyicilərinə xidmət Baş İdarəsi aparır*

# Ulu öndər Heydər Əliyevin ən böyük əsərlərindən biri

*Azərbaycan Mətbuat Şurası və «Vergilər» qəzetinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş «Heydər Əliyev və Azərbaycanda vergi siyasəti» mövzusunda fərdi jurnalist yazıları müsabiqəsi müasir vergi sistemi ilə bağlı yeniliklərin, habelə qarşıda duran əsas hədəflərin cəmiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət daşımışdır. «Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti», «Vergi Partnyorluğu Sazişi»: qarşılıqlı inam və etimad körpüsü», «Əmək müqaviləsi: gələcəyə təminat» istiqamətləri üzrə keçirilmiş müsabiqəyə ümumilikdə 64 yazı təqdim edilmiş, onlardan 9-u əsas mükafata, 10 yazı isə həvəsləndirici yerə layiq görülmüşdür.*

*Müsabiqədə yer tutmuş jurnalistlərin məqalələrini oxucuların diqqətinə təqdim edirik.*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində, ağır ilkin şərtlərə baxmayaraq, 1995- ci ildən başlayaraq ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olunmuşdu. Bu nailiyyətlərdən biri də Azərbaycanın təkmil vergi sisteminin qurulması idi. Heydər Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində vergi sistemində köklü dəyişikliklər aparılmış, vergi sisteminin müasir standartlar əsasında formalaşdırılması əsas məsələ kimi qarşıya qoyulmuşdur.

Müstəqil Azərbaycanın ilk vergi orqanı olaraq Maliyyə Nazirliyinin tərkibində 1990-cı ilin iyul ayında yaradılmış Baş Dövlət Vergi Müfəttişliyi ulu öndərin təşəbbüsü ilə 2000-ci il 11 fevral tarixli fərmanla ləğv edilmiş, onun bazasında ölkədə dövlətin vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi Vergilər Nazirliyi yaradılmışdır.

Ulu öndər Heydər Əliyevin bilavasitə tağşırığı əsasında 1997-ci ildən başlayaraq vergi münasibətlərinin tənzimlənməsi sahəsində vahid qanunvericilik bazasının yaradılması məqsədilə Vergi Məcəlləsinin layihəsinin hazırlanmasına başlanmışdır. Bu layihənin hazırlanması prosesində onun ayrı-ayrı hissələri dövlət başçısı yanında dəfələrlə müzakirə edilmiş, vergitutmanın sadələşdirilməsi, onun bazasının genişləndirilməsi, vergi yükünün azaldılması, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi barədə dəyərli tövsiyələr bu işin uğurla başa çatdırılmasına kömək etmişdir.

Ötən müddət ərzində dövlət nəzarətinin tərkib hissəsi kimi iqtisadi nəzarət sisteminin mühüm elementlərindən biri olan maliyyə nəzarəti sahəsində də ciddi dəyişikliklər baş vermişdir. Bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq dövlətimiz iqtisadiyyata birbaşa müdaxilə siyasətindən imtina edərək, dolayı vasitələrlə tənzimləmə siyasətinə üstünlük vermişdir ki, bunlardan da biri səmərəli maliyyə nəzarəti, o cümlədən vergi nəzarəti sisteminin tətbiq olunmasıdır.

Ölkədə iqtisadi islahatlar dərinləşdikcə, vergiqoymanın qanunvericilik və metodoloji bazasının təkmilləşdirilməsi zərurəti meydana çıxırdı. Vergi qanunvericiliyində mövcud olan bir sıra boşluqlar istər vergi ödəyicilərində, istərsə də vergi xidməti orqanlarında haqlı narazılıqlar doğururdu.

Məhz belə şəraitdə ümummilli liderin rəhbərliyi və diqqəti ilə ölkənin vergi sisteminin yenidən təşkil edilməsinə başlanıldı. Vergi münasibətlərinin təkmilləşdirilməsi məqsədilə dövlət başçısının bilavasitə tapşırığı ilə Nazirlər Kabineti bir sıra qərarlar qəbul etdi.

Bunlara misal olaraq «Azərbaycan Respublikası ərazisində əhali ilə nağd pul hesablaşmalarının aparılmasına nəzarət-kassa aparatlarının tətbiq olunması haqqında» 18 iyul 1995-ci il, «Vergi ödəyicilərinin uçotunun təkmilləşdirilməsi barədə» 19 dekabr 1996- cı il, «Mənfəət vergisinin ödənilməsini mərkəzləşdirilmiş qaydada həyata keçirən subyektlər haqqında» 31 mart 1997-ci il, «Azərbaycan Respublikası ərazisinə gətirilən minik avtomobillərinin aksiz vergisinə cəlbedilməsi haqqında» 16 aprel 1997-ci il, «Müəssisə və təşkilatların avans vergi məbləğlərinin hesablanması və ödənilməsi haqqında» 1 may 1997-ci il, lMəhsulun (işin, xidmətin) maya dəyərinə daxil edilən bəzi xərclərin tənzimlənməsi haqqında» 3 iyul 1997-ci il tarixli qərarları göstərmək olar.

> *«Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik».*
>
> *Heydər ƏLİYEV*

Özəlləşdirilmiş torpaqlarda səmərəli təsərrüfatçılığın, sahibkarlığın inkişafının təmin olunması məqsədilə ümummilli liderin təşəbbüsü ilə kənd təsərrüfatı məhsulları istehsalçılarının əvvəlki vergi borcları silindi, onlara uzunmüddətli vergi tətillərinin verilməsinə başlandı və bu proses hazırda da davam edir. Bu gün kənd təsərrüfatı istehsalı ilə məşğul olan hüquqi və fiziki şəxslər torpaq vergisindən başqa bütün digər vergi ödəmələrindən azaddırlar.

Heydər Əliyev ölkənin gələcək iqtisadi inkişafının məhz özəl sektorla bağlı olduğunu vurğulayırdı: «Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur». Ulu öndərin müəyyən etdiyi və onun rəhbərliyi ilə uğurla həyata keçirilən sahibkarlığın inkişafı strategiyası özəl bölmənin inkişafına yönəldilmiş tədbirlərin sistemliliyi, dövlət tənzimlənməsinin liberallaşdırılması, dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması ilə xarakterizə edilir. Qəbul olunmuş dövlət proqramlarının bu sahənin inkişafında xüsusi rolu oldu, kiçik və orta sahibkarlığın inkişafını iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevirdi.

Heydər Əliyevin rəhbərliyi ilə sahibkarlıq infrastrukturunun formalaşdırılması istiqamətində mühüm addımlar atıldı, sahibkarlara maliyyə dəstəyi və zəruri texniki yardım (məsləhət, informasiya və s. xidmətlər) göstərən strukturlar formalaşdı. Sahibkarların vergi yükünün azaldılması istiqamətində mənfəət və əlavə dəyər vergisinin dərəcələri aşağı salındı, kiçik sahibkarlıq subyektlərinə vahid vergi tətbiq edilməyə başlandı. Dövlət mülkiyyətinin özəlləşdirilməsinin qanunvericilik bazası yaradıldı və bu sahədə müvafiq dövlət proqramları təsdiq olundu.

Onu da qeyd etmək lazımdır ki, vergi orqanlarında aparılan struktur və kadr islahatlarında vergi xidməti əməkdaşlarının maddi rifahının yüksəldilməsinə də xüsusi diqqət göstərilib. Ulu öndər vergi orqanlarında xidməti dövlət qulluğunun xüsusi növü hesab edərək «Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» fərman imzalamaqla bu sahəni xüsusi statuslu xidmət səviyyəsinə qaldırdı.

Bu gün vergi xidməti müasir idarəetmə standartlarına cavab verən insan resurslarından istifadə üzrə siyasəti həyata keçirir. Bu, işə qəbul prosesindən başlamış, kadrların peşəkarlıq səviyyəsinin artırılması və inkişafı kimi bütün həlqələri əhatə edir. Vergi inzibatçılığının müasirləşdirilməsinin digər istiqaməti kimi vergi ödəyicilərinə keyfiyyətli və operativ xidmətin göstərilməsi məqsədilə 2003-cü ildə Vergilər Nazirliyi tərəfindən 195 telefon-məlumat xidməti təsis edildi. Bu xidmət 2006-cı ilin may ayının 1-dən respublikanın bütün ərazisini əhatə edir.

Digər tərəfdən, informasiya-kommunikasiya texnologiyaları dövlət qurumlarının fəaliyyətində şəffaflığın təmin olunmasında mühüm rol oynayır. Elektron xidmət dövlət qurumuna olan inamı möhkəmləndirir, eləcə də korrupsiya və süründürməçiliyin qarşısının alınmasına şərait yaradır. Bu proses həm də vergi ödəyicilərinin fəaliyyətinin şəffaflaşmasına, onlara yeni texnologiyalardan faydalanmağa və istifadəyə stimul verir.

Bu gün ölkəmizin dövlət büdcəsi get-gedə artmaqdadır. Bunun da başlıca səbəbi respublikamızda həyata keçirilən tənzimləmə siyasətidir. Milli iqtisadiyyatın tənzimlənməsinin vergi siyasəti vasitəsi ilə ölkəmiz öz iqtisadi müstəqilliyini qoruya bilmiş və Qərb ölkələrində mövcud olan böhranların təsirinə az məruz qalmışdır. Mövcud vergi mexanizminin köməyi ilə ölkəmizin iqtisadi prespektivinin proqnozlaşdırılmasını və planlaşdırılmasını həyata keçirmək mümkündür.

Ölkəni davamlı tərəqqi və yüksəliş yoluna çıxaran Prezident İlham Əliyevin uğurlarının səbəbi təkcə onun öz fəaliyyətini ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş möhkəm zəmin üzərində qurması ilə məhdudlaşmır. Burada ikinci mühüm amil cənab İlham Əliyevin müasir düşüncəli siyasi lider kimi yeni iqtisadi münasibətlər sisteminə dərindən bələd olması, modernləşməyə xidmət edən islahatları uğurla həyata keçirməsidir. Başqa sözlə, dövlət başçısı İlham Əliyev keyfiyyətcə yeni mərhələdə Azərbaycanın müasir dövlətə çevrilməsini, tam müstəqil siyasət yürütməsini, ən əsası inkişaf etmiş ölkələr səviyyəsinə yüksəlməsini milli ideyanın başlıca hədəfi kimi müəyyənləşdirmişdir.

**İradə CƏLİL,**
***«Ekspress» qəzeti***

# Vergi Ödəyicilərinə Xidmət Mərkəzində bir gün...

Hazırda ölkəmizdə vergi xidmətinin təkmilləşdirilməsi, modernləşdirilməsi və müasir dünya standartlarına tam uyğunlaşdırılması prosesi gedir. Bu istiqamətdə Vergilər Nazirliyi tərəfindən atılan uğurlu addımlardan biri də vergi ödəyicilərinə xidmət mərkəzlərinin yaradılmasıdır. Müasir avadanlıq və sürətli internet sistemi ilə təchiz edilmiş bu mərkəzlərin əsas məqsədi vergi ödəyicilərinə beynəlxalq standartlara uyğun vergi xidmətlərinin göstərilməsidir. Xidmət mərkəzlərinin böyük əksəriyyətinin regionlarda fəaliyyət göstərməsi ölkənin hər yerində vergi ödəyiciləri üçün bərabər imkanlar yaradılmasını təmin edir. Bu gün vergi ödəyicisi vergi orqanına getmədən yaşadığı və ya fəaliyyət göstərdiyi ərazidəki xidmət mərkəzinə müraciət edərək vergilər barədə məlumat və izahatların alınması, vergi ödəyicilərinin və təsərrüfat subyektlərinin (obyektlərinin) qeydiyyatı, qeydiyyatdan çıxarılması və qeydiyyat məlumatlarının dəyişdirilməsi, vergi bəyannamələrinin, hesabatların, ərizələrin və digər sənədlərin vergi orqanına göndərilməsi, nəzarət-kassa aparatlarının qeydiyyatı və qeydiyyatdan çıxarılması, hazır sənədlərin və arayışların alınması, «ASAN imza»nın, habelə istifadəçi kodu, şifrə və parolun əldə edilməsi, dəyişdirilməsi, uyğunsuzluq məktublarının araşdırılması və s. vergi xidmətlərindən istifadə edə bilir.

**Mirəli Qaşqay, 56 ünvanında** yerləşən Vergi Ödəyicilərinə Xidmət Mərkəzinin fəaliyyəti Bakı şəhərindəki sahibkarlıq subyektlərini əhatə edir. Burada vətəndaşlara vergi qanunvericiliyinin tətbiqi barədə izahatlar verilir, vergi bəyannamələrinin elektron formatda düzgün tərtib edilməsi və göndərilməsi, vergi ödəyiciləri ilə vergi orqanı arasında elektron sənəd mübadiləsinin aparılması ilə bağlı xidmətlər göstərilir, vergilərə aid ərizə və hesabat formalarının, buklet və başqa nəşrlərin verilməsi təmin edilir. Xidmət mərkəzi saat 09:00-dan saat 18:00-dək fasiləsiz işləyir.

Mərkəzin rəisi Nicat Mehdiyev 2010-cu ilin iyun ayından Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzində çalışmağa başlayıb, 2013-cü ilin dekabr ayından bu vəzifəyə təyin edilib. Onun sözlərinə görə, 2013-cü ilin noyabr ayından fəaliyyətə başlayan mərkəzin yaradılmasında səbəb vergi orqanlarında göstərilən bütün xidmətlərin vergi ödəyicilərinə vahid məkanda təqdim olunmasıdır.

Şöbə rəisinin otağında divardakı monitor vasitəsilə ümumi zala nəzarət edilir. N.Mehdiyev bildirir ki, monitordakı üç rəngin hərəsinin öz mənası var: «Yaşıl rəng masanın məşğul olduğunu ifadə edir, indi orada əməkdaşımız vətəndaşı qəbul edir. Göy rəng onu bildirir ki, əməkdaşımız vətəndaşı gözləyir. Qırmızı rəng isə masanın boş olduğunu bildirir. Bu hissədə yalnız statistik məlumatları izləyirik, kameralar vasitəsilə isə zalda baş verən hər bir hadisədən anındaca xəbərdar oluruq».

Gözləmə zalında növbə çox olduqda vətəndaşların oturub gözləməsi üçün hər cür şərait yaradılmışdır. Müraciət edən şəxslərin maarifləndirilməsi üçün quraşdırılmış monitorda hal-hazirda xidmət mərkəzinin fəaliyyəti ilə bağlı internet səhifəsində keçirilən sorğu göstərilir, vergilərə dair video-çarxlar nümayiş etdirilir. Xüsusi mesajlar, eləcə də Vergilər Nazirliyi tərəfindən həyata keçirilən hər hansı bir layihə və ya yenilik ekranın alt hissəsində yazı lenti vasitəsilə vətəndaşlara çatdırılır.




Özünəxidmət guşəsi aktiv vergi ödəyiciləri üçündür. Burada onlar kompüterlər vasitəsilə vergilərlə bağlı işlərini görə bilirlər. Məlumat lövhəsində hal-hazırda qəbul zonasında vergi ödəyiciləri tərəfindən doldurulan ərizə formalarının nümunələri, çağrı və xidmət mərkəzinin fəaliyyəti, mərkəzə müraciət etmək üçün hansı addımların atılmalı olduğu barədə xüsusi bildiriş forması nümayiş etdirilir. Burada vətəndaşların rahatlığı üçün printer, skayner, surətçıxarma aparatları da vardır. Guşədə Çağrı Mərkəzi ilə bilavasitə əlaqə yaratmaq üçün telefon aparatları quraşdırılıb, şifahi suallar telefonla cavablandırılır.

**Xidmət personalı**

Sahibkarlar Konfederasiyasının nümayəndəsi Xədicə Hüseynova mərkəzə müraciət edən vətəndaşları qarşılayır. O, qəbulda onların hansı xidmət növündən istifadə edəcəklərini, səlahiyyətli nümayəndələrin üzərində onların səlahiyyətlərini təsdiq edən və xidmətin göstərilməsi üçün tələb olunan zəruri sənədlərin olub-olmamasını dəqiqləşdirir, növbə sırasını seçməkdə vətəndaşlara yardım göstərir.

***Xətai İsmayılzadə:*** *«Vergi Ödəyicilərinə Xidmət Mərkəzinin təmsilçisi kimi fəaliyyət göstərirəm. Mərkəz elektron xidmətlər, yazılı müraciətlərin, narazılıq məktublarının qəbulu, şikayətlər və şifahi xidmətlər, vergi borcunun araşdırılması, ümumilikdə vergi ödəyicilərinə keyfiyyətli xidmət göstərib onların hüququnu müdafiə etmək məqsədi daşıyır. İndi sadələşdirilmis verginin hesabat dövrüdür. Müraciətlərdə ən çox bəyannamələrin təqdim olunması ilə bağlıdır.*

*Burada, həmçinin, müraciət edənlərin səsi yazılır və məmnunluğun ölçülməsi üçün vətəndaşların razı və ya narazı qalmasının qeydiyyatı aparılır».*

***Nəsimi Süleymanov:*** *«2012-ci ildən burada çalışıram. Biz vergi ödəyicilərinin qanunvericiliyə uyğun olaraq sənədlərlə bağlı ortaya çıxan uyğunsuzluqlarının açılmasında, yanlışlıqların araşdırılmasında onlara kömək edirik. Əksər hallarda bəyannamələrdə qaranlıq məqamlar olur və biz onu müraciət vərəqəsi kimi arasdırmaya veririk. Ödəyici də istəyir ki, sualına vaxtında cavab alsın».*

***Xalid Vəliyev:*** *«Hesabat dövrü olduğundan müraciətlər daha çox elektron xidmətlərlə bağlı olur. Hüquq pozuntusu ilə bağlı müraciətlər olanda nazirliyə xəbər veririk. İşimizin gedişatında hər şey qaydalara uyğun tənzimlənir. İstər təmsilçinin, istərsə də xidmət mərkəzinin rəhbərliyinin işi vergi ödəyicisini razı yola salmaqdır».*

***Lalə Məhərrəmova:*** *«İxtisasım hüquqşünasdır. Bu gün mənə 25 nəfər müraciət edib. Normaldır, hesabat dövrü olduğundan müraciətlər çox olur».*

***Həvva Əliyeva:*** *«Sevda Qəhrəmanova adlı vətəndaş müraciət edib unvanlı yardım almaq üçün məlumat istəyirdi. Nə özü, nə də yoldaşı heç yerdə isləmir, iki oğlu kollecdə pullu təhsil alır. Sevda xanıma unvanlı yardımla bağlı VÖEN açdıq və onu Dövlət Sosial Müdafiə Fonduna müraciət etməsi üçün yönəltdik».*

**Vergi ödəyicisi məmnundur...**

Yusif Bəkirov mərkəzə həm sahibkar, həm də ictimai birliyin rəhbəri kimi müraciət edib. O bildirdi ki, xidmət mərkəzində vergi ödəyicilərinin hüquqları yüksək səviyyədə müdafiə olunur: «Əvvəllər belə təkmilləşdirilmiş mərkəzlər olmadığından vergi ilə bağlı müəyyən çətinliklərə düçar olurduq. Bu gün peşəkar işçilərin köməyi ilə suallarımıza ətraflı cavab ala bilirik. Bəyannamə ilə bağlı problemim vardı, onu həll etdik. Sənədlərdə işçi sayının göstərilməsi, işdən ayrılanların əmr məsələləri ilə bağlı da zəruri məlumatlar əldə edə bildim».

**Fəxriyyə İKRAMQIZI**

# DSMF-nin gəlirlərində qeyri-büdcə daxilolmaları artır

*Dövlət Sosial Müdafiə Fondunda (DSMF) cari ilin ilk yarısının yekunlarına həsr olunan kollegiya iclasında sədr Elman Mehdiyev bildirib ki, Fondun gəlir və xərclərinin icrası, sığorta-pensiya sistemində beynəlxalq standartların tətbiqi və əmək pensiyaçılarının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri 2014-cü ilin 6 ayında da uğurla davam etdirilib.*

Cari ilin ilk yarısının yekunlarına görə, DSMF-nin gəlirləri ötən ilin müvafiq dövrünə nisbətən 8,9% və ya 115,8 mln. manat, sosial sığorta gəlirləri isə 11,4% və ya 82,7 mln. manat artıb. Sosial sığorta daxilolmalarının 64,5%-i və ya 519,9 mln. manatı qeyri-büdcə sektorunun payına düşüb ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 13,2% çoxdur. Eyni zamanda, fiziki şəxslərdən daxilolmalar 11,7% artıb. Qeyri-büdcə daxilolmalarının belə sürətli artımı ölkədəki iqtisadi inkişafın orta aylıq əməkhaqqının artımına, yeni daimi iş yerlərinin yaradılmasına, sığortaedənlərin qeydiyyatının gücləndirilməsinə və əməkhaqlarının leqallaşdırılması dərəcəsinin yüksəldilməsinə birbaşa təsir edir. DSMF-nin gəlirlərinin, xüsusilə də qeyri-büdcə daxilolmalarının sürətli artımı, öz növbəsində, pensiya və müavinətlərin maliyyələşdirilməsinə yönəldilən xərclərin artımına imkan verib.

DSMF sədri 2014-cü il yanvarın 1-dən bütün növ əmək pensiyalarının sığorta hissəsinə 2,4%-lik artım tətbiq olunduğunu, 1 iyul 2014-cü ilə əmək pensiyalarının baza məbləğinin 100 manat, orta aylıq məbləğinin 172,7 manat, yaşa görə pensiyalar üzrə orta aylıq məbləğin 190,9 manat, əvəzetmə əmsalının 45% təşkil etdiyini diqqətə çatdırıb: nəticədə pensiyaların orta aylıq məbləği pensiyaçılar üçün yoxsulluq həddini 1,7 dəfə üstələyib.

Hazırda ölkənin sığorta-pensiya sistemi ölkə əhalisinin 40%-dən çoxunu əhatə edir, DSMF-nin mərkəzi məlumat bazasında 1 milyon 283 min nəfər pensiyaçı və 2 milyon 816 min nəfərdən çox sığortaolunan barədə məlumatlar toplanıb: «Azərbaycanda müasir, avtomatlaşdırılmış əsaslarla fəaliyyət göstərən sığorta-pensiya sistemi mövcuddur və informasiya texnologiyalarının uğurlu tətbiqi nəticəsində 2014-cü ilin ilk yarısında daha 5 elektron xidmət istifadəçilərin ixtiyarına verilmişdir. 2014-cü ilin birinci yarısında DSMF-nin həm öz saytı (www.dsmf.qov.az), həm də «Elektron hökumət portalı» (www.e-qov.az) vasitəsilə əhaliyə təqdim etdiyi elektron xidmətlərdən ümumilikdə 500 min vətəndaş yararlanıb».

Sığortaolunanların fərdi uçot sisteminin qurulması tədbirləri də davam edir. 2014-cü ilin 1 iyul tarixinə 2 milyon 816 mindən çox sığortaolunana sosial sığorta nömrəsi verilib və onlar üçün fərdi hesab açılıb. Fərdi uçota alınanların sayı ilin birinci yarısında 125 min nəfərdən çox artıb. Eyni zamanda, sığortaedənlərdən məcburi dövlət sosial sığorta haqları üzrə sığortaolunanlar haqqında məlumatların qəbulu prosesi aparılıb. Fondun internet saytında fərdi şəxsi hesablarda əks olunan məcburi dövlət sosial sığorta haqlarının məbləği barədə sığortaolunanların məlumatlandırılması xidməti fəaliyyətini davam etdirir. Bu xidmət çərçivəsində hər bir sığortaolunan fərdi şəxsi hesabında əks olunan pensiya kapitalı, iş yerləri üzrə məcburi dövlət sosial sığortasına cəlb olunan gəlirləri və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı barədə məlumatları maneəsiz əldə etmək imkanına malikdir ki, bütün bunlar işləyənlərin öz işəgötürənləri üzərində ictimai nəzarətinin daha da güclənməsinə imkan verir.

**AYTƏN**

# Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**5-ci MƏRHƏLƏ** *(davamı)*

***Maliyyə hesabatlarının hazırlanması***

Hörmətli oxucular, mühasib tərəfindən sonuncu tərtib olunacaq «maliyyə hesabatlarına qeydlər» hesabatının sadə formada tərtib olunmasını aşağıdakı kimi davam etdirək (bax: *Qeyd 13, 14, 15*).

Aşağıda göstərilən 3 (Qeyd 13-dən Qeyd 15-dək) sayda qeydlər «mənfəət və zərər haqqında hesabat»a aiddir.

Qeydlərdə əks etdirilən göstəricilər sınaq balansı və Baş kitab məlumatlarıdır.

İndi isə «pul vəsaitlərinin hərəkəti haqqında hesabat» üzrə qeydləri hazırlayaq (bax: *Qeyd 16, 17, 18, 19*).

**Qeyd 13. İnzibati xərclər**

| Göstəricilər | 2014 | 2013 |
|---|---|---|
| Bank xidməti xərcləri | 190 | - |
| Əməkhaqqı | 5000 | - |
| Sosial sığorta ayırmaları | 1100 | - |
| Qaz xərcləri | 900 | - |
| Ofisin icarə haqqı | 2500 | - |
| Rabitə xərcləri | 270 | - |
| Dəftərxana malları | 150 | - |
| Amortizasiya xərcləri | 5000 | - |
| **Cəmi** | 15110 | - |

**Qeyd 14. Maliyyə mənfəəti (zərəri)**

| Göstəricilər | 2014 | 2013 |
|---|---|---|
| Bank krediti üzrə faiz xərcləri | 12660 | - |
| Cəmi | 12660 | - |

**Qeyd 15. Mənfəət vergisi**

| Göstəricilər | 2014 | 2013 |
|---|---|---|
| Hesabat dövrü üzrə hesablanmış uçot mənfəəti | 9344 | - |
| **Cəmi** | 9344 | - |

**Qeyd 16. Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər**

| Göstəricilər | 31.01.2014 | 31.12.2013 |
|---|---|---|
| Avadanlıqlara hesablanmış amortizasiya | 22500 | - |
| **Cəmi** | 22500 | - |

**Qeyd 17. Ehtiyatların (artması) azalması**

| Göstəricilər | 31.01.2014 | 31.12.2013 |
|---|---|---|
| Malların artması | (111650) | - |
| **Cəmi** | (111650) | - |

**Qeyd 18. Əməliyyat debitor borcları və gələcək dövrlərin xərcləri (artması) azalması**

| Göstəricilər | 31.01.2014 | 31.12.2013 |
|---|---|---|
| Alıcı və sifarişçilərin qısamüddətli debitor borclarının artması | (63400) | - |
| **Cəmi** | | - |

**Qeyd 19. Əməliyyat kreditor borcları və hesablaşmaların artması (azalması)**

| Göstəricilər | 31.01.2014 | 31.12.2013 |
|---|---|---|
| Malsatan və podratçılara qısamüddətli kreditor borcların artması | 128470 | - |
| Əməyin ödənişi üzrə işçi heyətinə qısamüddətli kreditor borcların artması | 1440 | |
| Sosial sığorta və təminatlar üzrə öhdəliklərin artması | 2700 | - |
| **Cəmi** | 132610 | - |

## vergi təqvimi

**AVQUST**

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | | | | 1 | 2 | **3** |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | **10** |
| 11 | 12 | 13 | 14 | **15** | 16 | **17** |
| 18 | 19 | **20** | 21 | 22 | 23 | **24** |
| 25 | 26 | 27 | 28 | 29 | 30 | **31** |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

15 avqust - «5», «(5)» və «6».
20 avqust - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.
**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.
**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.
**«5» - Əmlak vergisi:** Fiziki şəxslər avqust ayının 15-dən gec olmayaraq illik əmlak vergisinin yarısını yerli (bələdiyyə) büdcəyə ödəyirlər.
**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayınınn 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.
**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. Avqust ayının 15-dən gec olmayaraq illik torpaq vergisinin yarısını hüquqi şəxslər dövlət büdcəsinə, fiziki şəxslər isə yerli (bələdiyyə) büdcəyə ödəyirlər.
**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.
**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.




qara siyahı

# Borclu vergi ödəyiciləri

Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin 1-ci bəndinə əsasən, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur. Vergi Məcəlləsinin 16.1.1-ci maddəsində isə qeyd olunub ki, qanunla müəyyən edilmiş vergiləri ödəmək vergi ödəyicisinin vəzifəsidir. Məcəllənin 77-ci maddəsinin müddəalarına görə, vergi ödəyicisi vergi qanunvericiliyinin tələblərinə uyğun olaraq verginin ödənilməsini nəzərdə tutan şəraitin yarandığı andan vergi öhdəliklərinin yerinə yetirilməsi üçün cavabdehdir və vergi öhdəliyinin yaranması, dəyişdirilməsi və ya ləğv edilməsi qaydası və şərtləri yalnız Vergi Məcəlləsi ilə müəyyən edilir.

Vergilər Nazirliyinin apardığı təhlillər göstərir ki, borclu vergi ödəyicilərinin çoxu müxtəlif səbəblərdən yaranmış vergi borclarını mümkün qədər qısa müddət ərzində ödəməyə çalışır və əsasən, buna nail olur. Lakin vergi borclarını ödəmək üçün real imkanları olan bəzi vergi ödəyiciləri qanunvericiliyin tələblərini pozur, hesablanmış vergiləri nəzərdə tutulmuş müddətlərdə dövlət büdcəsinə ödəmirlər.

Bununla əlaqədar olaraq, ayrı-ayrı vergi orqanları üzrə borclarını 2 aydan artıq müddətdə ödəməyən, lakin buna real imkanı olan vergi ödəyicilərinin siyahısının mütəmadi qaydada «Vergilər» qəzetində dərc edilməsi, habelə həmin siyahıların vergi orqanları və vergi ödəyicilərinə xidmət mərkəzlərində yerləşdirilməsi nəzərdə tutulub. Qəzetimizin bu sayında 6 saylı Ərazi Vergilər İdarəsində qeydiyyatdan keçən və vergi borclarını ödəmək iqtidarında olan borclu vergi ödəyicilərinin siyahısı dərc olunur.

Adının «qara siyahı»ya düşməsini istəməyən vergi ödəyiciləri vergi borclarının qısa müddət ərzində dövlət büdcəsinə ödənilməsini təmin etməlidirlər.

| № | Vergi ödəyicisinin adı | Vergi ödəyicisinin qeydiyyatda olduğu rayon | 30.07.2014 tarixə borc (manatla) |
|---|---|---|---|
| 1 | Məmmədov Nadir Məmməd oğlu | Masallı rayonu | 5 041,4 |
| 2 | Abbasov Kamil Xanbaba oğlu | Masallı rayonu | 4 390,8 |
| 3 | Talıbov Seymur Çaparxan oğlu | Masallı rayonu | 4 289,8 |
| 4 | Həziyev Rauf Mirzəşəfi oğlu | Astara rayonu | 4 106,1 |
| 5 | «Ziyafət-kərpic» MMC | Astara rayonu | 3 985,6 |
| 6 | Əzizli Fərid Akif oğlu | Cəlilabad rayonu | 3 439,6 |
| 7 | Ağayev Xalid Elxan oğlu | Yardımlı rayonu | 3 304,2 |
| 8 | Ağahüseynov Ramiz Xanhüseyn oğlu | Cəlilabad rayonu | 2 702,6 |
| 9 | Muradov Mirhəbib Mirheydər oğlu | Cəlilabad rayonu | 2 259,2 |
| 10 | Əhmədov Elnur Yasər oğlu | Masallı rayonu | 2 154,4 |



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Alış dəyəri 500 manatdan az olan maddi aktivlərin auditi

*Hörmətli oxucular, azqiymətli və tezköhnələn əşyaların uçotu ilə əlaqədar hazırki qanunvericiliyin tələblərinin izahına misal üzərində baxaq.*

***Misal***

Mənfəət vergisi ödəyicisi olan müəssisə tərəfindən 2012-ci ilin yanvar ayında təsərrüfat fəaliyyətində istifadə olunması məqsədilə birinin qiyməti 495 manata, digərinin qiyməti isə 504 manata eyni tipli 2 ədəd printer (avadanlıq) alınmışdır. Hər iki avadanlıq 2014-cü ilin may ayında faydalı istifadə müddəti başa çatdığına (istifadəyə yararsız olduğuna) görə ləğv edilmişdir. Həmin printerlərin vergi məqsədli uçotda 2013-cü ilin sonuna qalıq dəyərini və ləğv tarixinə gəlirdən çıxılan xərclərə aid edilən məbləğləri müəyyənləşdirək.

Əvvəlcə qeyd edək ki, bu aktivlərin hər ikisi mühasibat uçotu məqsədləri üçün uzunmüddətli maddi aktiv hesab edilməli və ilkin dəyəri milli standartlara uyğun olaraq amortizasiya tətbiqi yolu ilə xərclərə aid edilməlidir. Vergi məqsədli uçotda isə 495 manata alınan (1-ci) printer alındığı ildə əmtəə-material ehtiyatları kimi uçota alınmalı (VM, maddə 139.1) və amortizasiya olunmalı aktivlərə aid edilməməlidir, 504 manata alınan (2-ci) printer isə alındığı il əsas vəsait kimi uçota alınmalı (VM, maddə 13.2.17) və amortizasiya olunan aktivlərə aid edilməlidir.

2012-ci ildə istismara başlanılan 1-ci printer amortzasiya olunan aktivlər sırasına aid edilmədiyinə görə həmin ilin sonuna vergi məqsədli dəyəri 495 manat olaraq qalacaqdır. 2-ci printer isə amortizasiya olunan aktivlər sırasına, yəni əsas vəsaitlərə aid edildiyinə görə amortizasiya tətbiq oluna bilər. Məsələn, illik 25% dərəcə ilə amortizasiya tətbiq etsək, 2-ci printerin həmin ilin sonuna vergi məqsədli qalıq dəyəri 378 (504 - (504 x 25%)) manat olacaqdır.

2013-ci ildə istismarı davam edən 1-ci printer yenə də amortizasiya olunan aktivlər sırasına aid edilmədiyinə görə həmin ilin sonuna vergi məqsədli dəyəri 495 manat olaraq qalacaqdır. 2-ci printer isə əsas vəsaitlərə aid edildiyinə görə Vergi Məcəlləsinin 114.8-ci maddəsi tətbiq oluna bilər. Bu maddənin tətbiqi nəticəsində 2-ci printerin həmin ilin sonuna vergi məqsədli qalıq dəyəri sıfır (378 - 378) manat olacaqdır. Deməli, iki il bərabər istismar edilən 2 ədəd eyni tipli printerdən vergi məqsədli uçotda 2013-cü ilin sonuna birinin dəyəri 495 manat, digərinin dəyəri isə sıfır manat olacaqdır, baxmayaraq ki, qalıq dəyəri sıfır manat olan 2-ci printer daha baha alınmışdır.

Bununla da 2014-cü ilin may ayında ləğv tarixinə gəlirdən çıxılan xərclərə aid edilən məbləğ 1-ci printer üzrə 495 manat, 2-ci printer üzrə isə sıfır manat olacaqdır.

Burada maraqlı bir sual ortaya çıxa bilər. Əgər bu müəssisə ƏDV ödəyicisidirsə və hər iki printeri ƏDV ödəməklə əldə etmişdirsə və müvafiq əvəzləşdirmə almışdırsa, həmin printerlərin ləğv olunaraq uçotdan silinməsi ƏDV üzrə vergi tutulan əməliyyat sayılırmı?

2-ci printer amortizasiya olunan aktivlərə aid edilməsinə baxmayaraq, həmin printerin uçotdan silinməsi Vergi Məcəlləsinin 159.5-ci maddəsinin tələbinə görə ƏDV üzrə vergi tutulan əməliyyat sayılmır, çünki Məcəllənin bu maddəsində aktivin tam amortizasiya olunmadan uçotdan silindiyi halda ƏDV-nin tətbiq olunduğu nəzərdə tutulmuşdur. Bizim misalda vergi məqsədləri üçün 2-ci printer ləğv tarixinə (hətta 2013-cü ilin sonuna) tam amortizasiya olunmuş və qalıq dəyəri sıfıra bərabər olmuşdur.

1-ci printerin ləğv tarixinə 495 manat uçot dəyərinə ƏDV-nin tətbiq olunub-olunmaması məsələsinə aydınlıq gətirməzdən əvvəl həmin printerin vergi uçotundakı anlayış adına görə təhlilinə diqqət yetirək. 1-ci printer vergi uçotunda 159.5-ci maddənin məqsədləri üçün mal kimi çıxış edir. Digər tərəfdən də bizim misal üzrə «1-ci printerin ləğv olunması» Məcəllənin bu maddəsində «malların xarab olması» ifadəsi ilə üst-üstə düşə bilər. Çünki 1-ci printer istismar nəticəsində təbii olaraq sazlığını itirdiyinə, yəni xarab olduğuna görə ləğv olunur. Belə fikir söyləmək olar ki, adı «azqiymətli və tezköhnələn əşyalar» kimi qəbul edilən bütün maddi aktivlər (təsərrüfat inventarları, ümumi və xüsusi təyinatlı alət və ləvazimatlar, xüsusi geyimlər, ayaqqabılar, hətta dəftərxana malları və s. əsas vəsaitlərə aid edilməyən maddi əşyalar) mütləq olaraq xarab olduqdan (yararsız hala düşdükdən) sonra uçotdan silinməyə məruz qalır və bu halda həmin maddi aktivlərin uçotdan silinməsinin ƏDV tutulan əməliyyat hesab edilməsi düşündürücü ola bilər.

Məcəllənin 159.5-ci maddəsində «malların xarab olması» ifadəsini malların, o cümlədən azqiymətli və tezköhnələn əşyaların istehsal (xidmət, iş) sahəsində (gəlirin alınması ilə bağlı əməliyyatlarda) istifadəsi (istismarı) nəticəsində fiziki aşınaraq və ya müəyyən səbəblərdən xarab olması kimi başa düşmək düzgün deyildir. Əgər mallar, həmçinin azqiymətli və tezköhnələn əşyalar istehsal (xidmət, iş) sahəsində (gəlirin alınması ilə bağlı əməliyyatlarda) istifadədən (istismardan) kənar hadisələr nəticəsində fiziki aşınmışdırsa (xarab olmaya məruz qalmışdırsa), bu halda belə maddi aktivlərin uçotdan silinən dəyərinə ƏDV hesablanmalıdır.

beynəlxalq panoram

# Avstraliyada karbon qazı tullantılarına görə vergi ləğv olunub



*Avstraliya parlamenti sənaye müəssisələri üçün karbon qazı tullantılarına görə vergini ləğv edib. Yerli KİV-lər qanunun ləğvini ölkənin ekoloji siyasətində radikal dönüş adlandırır.*

Amma tullantılara görə verginin ləğvi hökumətin atmosferə karbon qazı tullanmasının azaldılması siyasətindən imtina etdiyini bildirmir. Bunun üçün istehsalata ekoloji təmiz texnologiyaların tətbiqi üzrə layihənin hazırlanması planlaşdırılır.

Verginin ləğvi leyboristlər və «yaşıllar» partiyaları tərəfindən bəyənilməyib. Onlar mühafizəkarlar partiyasının təmsilçisi olan baş naziri «ölkəni ekoloji və iqtisadi fəlakətə doğru apardığına» görə ittiham ediblər. Xatırladaq ki, Avstraliya adambaşına düşən istixana qazlarının sayına görə dünyada lider mövqedədir.

# Çində «yaşıl» maşınlar vergilərdən azad olunacaq

*Çin hakimiyyətindən yenilik: «yaşıl» avtomobillər vergilərin ödənilməsindən azad olunur. Əvvəl bu vergi avtomobilin dəyərinin 10%-ni təşkil edirdi.*

Ətraf mühitin çirklənməsi ilə mübarizə üzrə belə radikal vasitə avtomobil sahiblərinin maddi maraqlarına uyğundur. Avtomobilin markalarına gəldikdə isə azadolma yalnız adları siyahıda olan maşınlara tətbiq ediləcək. Hazırda bu siyahı dəqiqləşdirilir və yalnız hibridlərin, yanacaq elementli modellərin və elektrokarların birmənalı şəkildə siyahıya daxil ediləcəyi, mənşə ölkəsindən asılı olmayacağı məlumdur.

# Rusiyada 2015-ci ildən əmlak vergisi artacaq

*2015-ci ildən iri daşınmaz əmlak sahibləri öz mülkiyyətlərinə görə artırılmış vergi ödəyəcəklər. Lakin sahəsi 20 m² olan kiçik mənzillərin, 50 m² kiçik evlərin və 10 m² otaqların sahibkarlarına Vergi Məcəlləsinə edilən dəyişikliklər toxunmayacaq. Dövlət onları əmlak verginin ödənilməsindən ümumiyyətlə azad etməyi planlaşdırır.*



Qüvvədə olan əmlak vergisi 2015-ci il yanvarın 1-dən fiziki şəxslərin daşınmaz əmlak vergisi ilə əvəz ediləcək. Ödənişin məbləği mənzilin inventarlaşdırma dəyərindən deyil, kadastr dəyəri əsasında hesablanacaq. Ödənişlərin məbləği hesablanarkən vergidən azad edilən «kvadrat metrlər» mənzilin sahəsindən çıxılacaq. Vergi dərəcələri əhalinin sosial qrupları nəzərə alınmaqla fərqləndiriləcək. Regionlar müstəqil olaraq vergini azalda və ondan azad olunan sahələri artıra, güzəştlər tətbiq edə bilər.

Yeni qanuna əsasən, güzəşt aşağıdakı siyahıdan olan yalnız bir obyektə şamil olunacaq: yaşayış evi, mənzil və ya yaradıcılıq emalatxanası, sahəsi 50 kvadratmetrdən artıq olmayan təsərrüfat tikilisi, qaraj və ya maşın üçün yer. Ekspertlər hesab edirlər ki, torpaq sahəsindən ayrı tikilən bütün tikililər qeydiyyata alınaraq, onlara görə vergi ödənilməli və ya sökülməlidir. Yeni vergitutmaya keçid 5 il ərzində tədricən, binaların kadastr qiyməti müəyyənləşdirildikcə baş verəcək. 2020-ci ildən isə vergi dərəcələri hər il 20% artırılacaq. Bu artım yalnız 2025-ci ildə dayanacaq. Bütün bunlar Rusiyanın regionundan və mənzillərin tipindən asılı olacaq.

Xarici ölkələrin təcrübəsi:

# Latviya Respublikasının vergi sistemi: mənfəət vergisi

*Latviyada fəaliyyət göstərən müəssisələrə münasibətdə bir sıra vergi güzəştləri tətbiq olunur.*



***İqtisadi zonalar və azad limanlar***

Latviyada Liepaya limanı və ətraf ərazilərdə 1 mart 1997-ci il tarixdən 1 mart 2017-ci il tarixədək, Rezeknedə 4 noyabr 1997-ci il tarixdən 4 noyabr 2017-ci il tarixədək iki xüsusi iqtisadi zona (XİZ) yaradılmışdır. Bundan başqa, Latviyada iki azad liman (AL) da yaradılmışdır: Riqa azad limanı və Ventspils azad limanı. XİZ və ya AL-də fəaliyyət göstərmək istəyən investorlar həmin ərazilərdə Latviya qanunvericiliyinə əsasən səhmdar cəmiyyəti və ya məhdud məsuliyyətli cəmiyyət təsis etməlidirlər. Müəssisələrə həmin zonaların vergi güzəşti hüququnu verən şəhadətnamələr müəyyən müddətlə buraxılır. Şəhadətnamənin qüvvədə olduğu müddətdə qanunvericilikdə baş vermiş hər hansı dəyişiklik müəssisənin fəaliyyətinə təsir etmir. Müəssisə təsis edildiyi zaman əldə etdiyi vergi güzəşti hüquqlarından şəhadətnamədə göstərilən bütün müddət ərzində istifadə edə bilər.

Hal-hazırda XİZ və AL müəssisələrinə mənfəət vergisinə münasibətdə aşağıdakı güzəştlər verilir:

1. Müəssisənin ödəməli olduğu mənfəət vergisinin məbləği 80% azaldılır.

2. «Vergi cənnətləri»nin rezidentlərinə ödənişlər istisna olmaqla, qeyri-rezidentlərə ödənilən dividend, menecment, konsultasiya rüsumları və royaltilərdən ödəmə mənbəyində tutulan verginin məbləği 80% azaldılır.

3. Vergi tutulan gəlir ümumi investisiyanın XİZ və AL-də yerləşən, dövlət və ya yerli hakimiyyətə məxsus sosial infrastruktura investisiya həcmi qədər azaldıla bilər, bu şərtlə ki, həmin investisiya XİZ və ya AL ilə bağlanmış müqaviləyə əsaslanır.

4. 1 yanvar 2012-ci il tarixdən etibarən 2005-ci il və sonrakı vergi dövrlərində yaranmış zərər qeyri-müəyyən müddətə gələcək dövrlərə keçirilə bilər.

Əgər XİZ və ya AL müəssisəsi Avropa İttifaqının 70/2001 saylı Reqlamentinə əsasən «iri» müəssisə kriteriyalarına uyğundursa (yəni 250 və ya daha artıq işçisi vardırsa və dövriyyəsi 40 milyon avro və ya daha artıqdırsa və ya balans üzrə dəyəri 27 milyon avrodan artıqdırsa), yuxarıda göstərilən güzəştlərin cəmi XİZ və ya AL müəssisəsinin məcmu investisiyalarının 50%-dən artıq olmamalıdır. Əgər müəssisə Reqlamentə əsasən «orta» müəssisədirsə, bu zaman müvafiq hədd 60%-ə bərabər olacaqdır. Kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən müəssisələrə fərqli faiz dərəcələri tətbiq edilir. Bəzi digər sahələrdə (nəqliyyat, polad hazırlanması və s.) fəaliyyət göstərən müəssisələrə isə bu güzəşt hüququ verilmir.

Məcmu birbaşa vergi güzəşti XİZ və ya AL müəssisəsinin investisiya şəhadətnaməsinin verildiyi ildən başlayaraq faydalandığı bütün güzəşt məbləğlərinin cəmidir. Məcmu investisiya investisiya şəhadətnaməsinin verildiyi ildən başlayaraq qoyulmuş bütün investisiyaların cəmidir. Yuxarıda göstərilən güzəştlər 31 dekabr 2001-ci il tarixdən sonra təsis edilmiş müəssisələrə aid edilir. 31 dekabr 2017-ci il tarixdən sonra edilmiş investisiyalara azadolmalar və güzəştlər tətbiq edilməyəcək.

***Xüsusi regionlar***

«Xüsusi regionlara dəstək haqqında» Qanuna əsasən, xüsusi region kimi tanınan ərazilərdə biznes fəaliyyəti ilə məşğul olan müəssisələrə iki növ vergi güzəşti hüququ verilir:

- amortizasiya artırılmış baza ilə hesablana bilər. Bu, yalnız xüsusi regionlarda istifadə edilən maddi aktivlərə münasibətdə tətbiq edilir. 1, 2, 3 və 4-cü kateqoriya üzrə aktivlərə amortizasiya bazası müvafiq olaraq 1.5, 1.3, 1.8 və 2 dəfə artırılır;
- 1 yanvar 2012-ci il tarixdən etibarən 2004-cü il daxil olmaqla ondan əvvəlki vergi dövrlərində yaranmış zərər 10 il müddətinə gələcək dövrlərə keçirilə bilər. 2005-ci il və sonrakı vergi dövrlərində yaranmış zərər qeyri-müəyyən müddətə gələcək dövrlərə keçirilir.

***İanələr***

Latviya və ya digər AİZ ölkəsinin rezidenti olan xeyriyyə, dini və dövlət təşkilatlarına ianələrin 85%-i həcmində vergi güzəşti verilir. Lakin ianələrə görə güzəşt təqdim edildiyi ildən əvvəlki ildə ödənilmiş mənfəət vergisinin 20%-dən artıq ola bilməz.

Əgər ianə kompensasiya xarakteri daşıyırsa, birbaşa və ya dolayı şəkildə onu ödəyən şəxslə qarşılıqlı surətdə asılı olan şəxsə və ya onun işçisinə (işçisinin ailə üzvünə) ünvanlanmışdırsa, güzəşt tətbiq edilə bilməz. Bundan başqa, əgər vergi ödəyicisinin vergi ilinin ikinci ayının birinci gününə əvvəlki illərdən yerinə yetirilməmiş vergi öhdəliyi qalmışdırsa, güzəşt tətbiq edilmir.

*Rubrikanı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi aparır*

krossvord



**Yuxarıdan aşağı:** 1.Tanınmış bəstəkar Vaqif Gərayzadənin yaratdığı musiqi ansamblı; 2.Müəyyən işin gedişinə, icrasına nəzarət etməli olan şəxs və ya təşkilat; 3.Obyektlərin yerinin təyin edilməsi, koordinatlarının və hərəkət göstəricilərinin ölçülməsi üçün elektromaqnit dalğalarının əks olunması və şüalanması prinsipi ilə işləyən cihaz; 4.Üstü şokoladlı dondurma növü; 5.Səmavi dinlərdən biri; 6.Azərbaycan ədəbiyyatının klassiklərindən birinin təxəllüsü; 9.Müsbət yüklü elektrod; 13.Kainatda sonsuz boşluq, göy, asiman; 15.Milanda dünyanın ən tanınmış və ən məşhur opera teatrı; 16.Fotoqrafiya, geodeziya və s. aparatlarını bərkitmək üçün açılıb-bağlanan üçayaqlı səyyar cihaz; 17.Vəziyyət, durum; 18.Balıq cinsi; 20.«Çalıquşu» filmində Fəridə obrazını canlandıran türk aktrisasının adı; 21.Vətəni Amerikada olan qəhvə içkisi.

**Soldan sağa:** 1.Musiqi aləti. Bu adı alətə 1829-cu ildə Vyana orqan ustası K.Damian qarmonu təkmilləşdirdikdən sonra verib; 5.Elektrik yüklənmiş atom və ya molekul; 7.Adi və hamı tərəfindən qəbul olunmuş fikrə, mühakiməyə, qənaətə qəti uyğun olmayan, düzgün mühakiməyə zidd nöqteyi-nəzər, mülahizə; 8.Gəmilərin suyu müxtəlif səviyyədə olan çay və kanallardan keçməsi üçün xüsusi hidrotexniki qurğu; 10.Maşının, turbinin, motorun və s. fırlanan hissəsi; 11.Ən kiçik, ən az; 12.«Cırtdan və div», «Meşəyə insan gəlir», «Balaca çoban» və bir çox multiplikasiya filmlərinin animator və rəssamının adı; 14.Bir çox janrlarda uğurla çalışaraq simfonik poema, simli kvartet, kantata, xor miniatürləri yaratmış bəstəkar, Azərbaycan Respublikasının əməkdar incəsənət xadiminin adı; 19.Üçüncü ölkədən keçməklə, bir ölkədən digərinə və ya aralıq məntəqələrdən keçməklə bir məntəqədən digərinə yük və ya sərnişin daşınması; 21.XVIII əsrdə yaradılmış gizli təşkilat; 22.Yaponiyanın Saytama prefekturasında şəhər; 23. Musiqi termini. Səsləri biri-birindən pauza ilə ayırmaq və qırıq-qırıq ifa vəd edən musiqi ştrixi; 24.Türkiyədə göl və şəhər; 25.Musiqi termini. Səslərdə ahəngsizlik, qarışıqlıq, uyğunsuzluq.

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Memfis; 2.Zərdabi; 3.Nesti; 4.Rezüme; 5.Vertu; 6.Lesoto; 9.İtki; 13.Pyer *(Rişar)*; 15.Ərkivan; 16.«Əkinçi»; 17.Saturn; 18.Arkada; 20.Rolik; 21.Corat.

**Soldan sağa:** 1.Mizantrop; 5.Val; 7.Marksizm; 8.İris; 10.İtasi; 11.Mətbuat; 12.Hippi; 14.Mixək; 19.Karyera; 21.Coker; 22.Nils *(Bor)*; 23.Dubrovka; 24.İlk; 25.Konstansa.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi:
Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor:
Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini:
Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan:
AZ 1141, Bakı ş.,
Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon:
012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14200

## idman

# Azərbaycan güləşçiləri «Qızıl Qran-Pri» turnirini inamlı qələbə ilə başa vurublar



İyulun 25-də «Sərhədçi» Olimpiya İdman Mərkəzində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş güləş üzrə «Qızıl Qran-Pri» beynəlxalq turnirinin final mərhələsinin rəsmi açılış mərasimi keçirilib.

Gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov tədbirdə çıxış edərək ölkəmizdə idmana göstərilən dövlət qayğısından və idmançılarımızın qazandıqları nailiyyətlərdən danışıb. Bildirilib ki, dövlətin bütün sahələrlə yanaşı, gənclərin mənəvi tərbiyəsində, fiziki və zehni inkişafında mühüm vasitə olan idmana yüksək diqqət və qayğısı Azərbaycan idmanını yüksək zirvələrə qaldırıb: «Hazırda ölkəmizdə idman və bədən tərbiyəsi yüksək inkişaf dövrünü yaşayır. İdmançılarımız nüfuzlu yarışlarda layiqli qələbələr əldə edir, idmanımızın maddi-texniki bazası genişlənir, digər dövlətlərlə beynəlxalq əlaqələrimiz daha da möhkəmlənir. Təsadüfi deyil ki, 2015-ci ildə keçiriləcək ilk Avropa Oyunlarına məhz Azərbaycan ev sahibliyi edəcək. Bu da Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasının bariz nümunəsidir».

Mərasimdə çıxış edən Beynəlxalq Güləş Federasiyasının (FILA) prezidenti Nenad Laloviç yarışın yüksək səviyyədə təşkilinə, idmançılar üçün yaradılan şəraitə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirib. Onun sözlərinə görə, bu turnir FILA-nın təqvim planında ən güclü yarışlardandır.

Azərbaycan Güləş Federasiyasının birinci vitse-prezidenti, FILA İcraiyyə Komitəsinin üzvü Namiq Əliyev bildirib ki, ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş güləş üzrə «Qızıl Qran-Pri» turniri artıq 7-ci dəfədir ki, keçirilir: «Turnirin final mərhələsində 35 ölkədən 400-ə yaxın ən güclü pəhləvan mübarizə aparır. Bəzi aparıcı güləşçilərimiz zədəli olduğuna görə, yarışda orta tərkibli yığma komandamız mübarizə aparırlar. Bu yarışın nəticələrinə əsasən, qarşıdan gələn dünya çempionatında müəyyən çəki dərəcələrində iştirak edəcək güləşçilər müəyyənləşəcək».

Qeyd edək ki, 3 gün davam edən turnirin ilk yarış günündə sərbəst güləş üzrə bütün çəkilərdə qaliblər müəyyənləşib. Güləşçilərimiz ilk günü 3 qızıl, 3 gümüş və 7 bürünc medalla başa vurublar. Qızıl medalları yığmamıza Hacı Əliyev (61 kq), Cəbrayıl Həsənov (74 kq) və Xetaq Qazyumov (97 kq) qazandırıblar. Əhmədnəbi Qvarzatilov (57 kq), Məhəmməd Müslümov (65 kq) və Emin Əzizov (70 kq) yalnız finalda məğlub olaraq gümüş medalla kifayətləniblər. Bürünc medalları isə yığmamıza Yaşar Əliyev, Mahmud Məhəmmədov (hər ikisi 57 kq), Ağahüseyn Mustafayev (65 kq), Ruslan Dibirhacıyev, Hacımurad Ömərov (hər ikisi 70 kq), Aleksandr Qostiyev (86 kq) və Aslan Dzebişov (125 kq) qazandırıblar.

İkinci yarış günündə qadın güləşi üzrə bütün çəkilərdə qaliblər müəyyənləşib. Azərbaycan güləşçiləri Mariya Stadnik (48 kq) və Yuliya Ratkeviç (60 kq) bütün rəqiblərindən üstün olaraq fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb.

Son yarış günündə isə yunan-Roma güləşi üzrə bütün çəkilərdə qaliblər müəyyənləşib. Azərbaycan güləşçiləri 4 qızıl, 3 gümüş və 3 bürünc medal qazanıblar. Qızıl medalları yığmamıza Taleh Məmmədov (59 kq), Həsən Əliyev (66 kq), Rafiq Hüseynov (75 kq) və Elvin Mürsəliyev (80 kq) qazandırıblar. Rəsul Çunayev (71 kq), Saman Təhmasibi (85 kq) və Sabah Şəriəti (130 kq) yalnız finalda uduzaraq gümüş medala sahib olublar. Bürünc medalları isə yığmamıza Kamran Məmmədov (59 kq), Rüstəm Əliyev (71 kq) və Şalva Qadabadze (98 kq) qazandırıblar.

Beləliklə, ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş «Qızıl Qran-Pri» beynəlxalq turnirini parlaq qələbə ilə başa vuran güləşçilərimiz qarşıdakı dünya çempionatının favoritlərindən olduqlarını bir daha sübut ediblər.

# Taekvondo üzrə dünya çempionatı başa çatıb

*Bakıdakı Milli Gimnastika Arenasında təşkil edilən taekvondo üzrə yeniyetmələr arasında birinci dünya çempionatının dördüncü - sonuncu günündə oğlanlar arasında 65 və 61, qızların mübarizəsində isə 59 kiloqram çəki dərəcələrində qaliblər müəyyənləşib.*




İyulun 27-də Azərbaycan komandasının üç üzvü - İkram Hüseynov (61 kq), Mehdi Tağıyev (65 kq-dan aşağı) və Orxan Tağızadə (65 kq-dan yuxarı) birincilik uğrunda dayanq üzərinə çıxıblar. Taekvondoçularımız mükafatçılar sırasında yer ala bilməyiblər. Azərbaycan komandasının üzvü İkram Hüseynov (61 kq) ilk görüşdə Ahmad Alxatibə (İordaniya) qalib gələrək növbəti mərhələyə adlayıb. Lakin o, dörddəbir finalda Lusi Osorioya (Meksika) məğlub olaraq turnirdə iştirakını dayandırıb. 65 kq-dan yuxarı çəki dərəcəsində mübarizə aparan Orxan Tağızadə isə ilk görüşdə qazaxıstanlı Nartay Urazbayevə uduzub. Mehdi Tağıyev (65 kq-dan aşağı) isə belaruslu Yevgeni Zabrotskiyə 3 xalla (qızıl xal) qalib gələrək növbəti mərhələyə adlayıb. O, dörddəbir finalda danimarkalı Vassim El-Jilaliyə məğlub olaraq turnirdə iştirakını yekunlaşdırıb.

Turnirin final mərhələsində qızların yarışında Zahra Pouresmaeil (59 kq-dan yuxarı, İran), Kristina Çerina (59 kq-dan aşağı, Xorvatiya), oğlanların mübarizəsində isə Myeong-Gyun Byun (65 kq-dan aşağı, Cənubi Koreya), Mehrdad Xazaeipool (61 kq-dan aşağı, İran), Azar Voghouei Amirhossein (65 kq-dan yuxarı, İran) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Qaliblərə medallar təqdim olunub.

## mozaika

faydalı

# Telefonunuz suya düşsə...




*Telefonu sondürdünüzsə və ya telefon zədə səbəbiylə sönmürsə, yandırıb söndürmək düyməsi işləmirsə telefonu qurulamağa başlaya bilərsiniz. Elə şeylə qurulayın ki, həm suyu canına tez çəkə bilsin, həm də telefonu cızmasın.*

Daha sonra telefonu hissələrə ayırıb (qapağını, simkartını, yaddaş kartını, batereyasını və s. çıxarıb) içini tozsoranla qurulayın. Saçqurudan da istifadə etmək olar, amma soyuq temperaturda! İsti hava telefonun çiplərinə böyük zərər verə bilər.

Daha sonra iri bir qabın içinə bərk, çiy düyü doldurun və telefonu düyünün içinə basdırın. Düyü telefonun içindəki nəmi 2-3 günə öz canına çəkəcək.

Üç gün keçəndən sonra telefonu düyünün içindən çıxarıb üfləyib təmizləyin, içində düyü qalıb-qalmadığına fikir verin. Deyilən məsləhətlərə əməl etmisinizsə, böyük ehtimalla telefon işləyəcək.

Telefonun səsi çıxmırsa (bu hadisə daha çox «iPhon»larda olur) və ya bəzi kiçik fiziki detallar tam işləmirsə iki həftə düzəlməyini gözləyin. «iPhon»un səsi bəzən on gündən sonra açılır..

Ən vacib məsləhət isə budur ki, telefonunuzdan muğayat olun...

# «Robot arı» köməyə gələcək

texnologiya



Pestisidlərdən kütləvi istifadə ilə əlaqədar olaraq dünyanın bir çox ölkələrində arılar yoxa çıxıb. Bu isə kənd təsərrüfatı sahəsində məhsulun azalmasına səbəb olur. Bu problem ucbatından Çinə daha çox ziyan dəyib. Vəziyyəti yaxşılaşdırmaq üçün indiyədək süni arı yetişdirməyə çalışsalar da, təəssüf ki, bu cəhd uğurlu olmayıb. Məhsulu xilas etmək üçün mexaniki tozlamadan istifadə olunur ki, bu da uzun və zəhmətli bir prosesdir. Məsələn, Çinin Sıçuan əyalətinin sakinləri tozcuqları yığıb qurudur və sonradan onu bar verən ağacın hər bir çiçəyinə əl ilə qoyurlar.

Hazırda Robert Vud başda olmaqla Harvard Universitetinin tədqiqatçıları tozlanmanın avtomatlaşdırılması sahəsində iş aparırlar. Onların işləyib hazırladıqları «RoboBee» adlı uçan robotlar arıların məhv olmasının daha ağır nəticələr verdiyi ölkələrə kömək göstərəcəkdir.

Hazırlanmış ilk robot arılar öz ağırlıqlarını daşıya bilmirdi. Bir il də çalışdıqdan sonra bu süni həşəratların imkanları artırıldı. Bununla da həmin robotlardan aqrar-sənaye kompleksində istifadə etmək mümkün olacaq.

Süni arını - robotu idarə edəcək server üçün proqram təminatı yazılmalıdır. Bu layihəni başa çatdırmaq üçün 15 ilədək vaxt lazımdır. Həşəratın uçuşunun sürətləndirilməsi və ondan daha uzun müddət istifadə etmək üçün batareyanın tutumunun artırılması kimi bir çox məsələlər həll edilməlidir. ABŞ-ın Milli Elm Fondu «RoboBee» robotlarının işlənib hazırlanmasına 10 milyon dollar vəsait ayırmışdır.

ekologiya

# Kür çayında biogen maddələr normadan artıqdır

*Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühit üzrə Milli Monitorinq Departamentinin Kür və Araz transsərhəd çaylarının çirklənmə vəziyyətini öyrənmək məqsədi ilə iyul ayının ikinci ongünlüyü üçün apardığı monitorinqin nəticələri açıqlanıb.*

Nazirliyikdən bildirilib ki, monitorinqin nəticələrinə əsasən, Gürcüstan və Ermənistan ərazilərindən təmizlənmədən axıdılan məişət tullantıları və sənaye müəssisələrinin çirkab sularının təsiri nəticəsində Kür çayı və onun qollarında biogen maddələrin miqdarı normadan dəfələrlə artıq olub. Suyun tərkibindəki spesifik çirkləndiricilərdən fenollar yol verilən qatılıq həddindən Şıxlı-2 məntəqəsində 5, Ağstafaçayda 4,3, Ağstafaçay su anbarında isə 3,7 dəfə çox olub.



Eyni hal Araz çayının Horadiz, Birinci Şahsevən və Bəhramtəpə məntəqələrində də müşahidə olunub. Mis birləşmələri isə Kür və Araz çayları üzrə bütün məntəqələrdə norma daxilində tərəddüd edib.

Suyun oksigen rejiminin bütün məntəqələrdə sanitar norma daxilində dəyişdiyi müəyyən edilib.

# Dünyanın ciddi problemi

*Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) məhdud torpaq resurslarının münbitsizləşməsinin qarşısını almaq və gələcək nəsilləri yetərincə ərzaq, su və enerji ehtiyatı ilə təmin etmək məqsədi ilə torpaq resurslarının vəziyyətini yaxşılaşdırmağa dair təxirəsalınmaz işlər görməyə çağırıb.*

Eroziya, qüvvədən düşmə, bərkimə və kimyəvi çirklənmənin səbəb olduğu münbitsizləşmə indiyə qədər bütün dünyada torpaq resurslarının təqribən 33%-ni əhatə edib. FAO-nun baş direktorunun müavini Mariya Helena Semedo deyib: «Torpaq ərzaq, yem, yanacaq və lif istehsalının əsasını təşkil edir». O vurğulayıb ki, torpaqsız Yer kürəsində həyatı qoruyub saxlamaq mümkün deyil. İtirilmiş torpaq resurslarını bir nəslin dövründə bərpa etmək olmur. Torpaqların gücdən düşməsinin indiki sürəti gələcəyə ciddi təhlükədir.

Bu məqsədlə FAO-nun iclasında torpaqlardan sabit istifadəyə və onların qorunmasına dair «Qlobal fəaliyyət planı» qəbul edilib.

Aclığın aradan qaldırılmasına, ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə və yoxsulluğun azaldılmasına şərait yaratmağa yönəldilən plan təsirli hüquqi normaların işlənib hazırlanmasını və torpaq resurslarının sabit idarə olunması üzrə layihələrə dövlət investisiyalarının artırılmasını nəzərdə tutur.

FAO-dan bildiriblər ki, dünyada məhsuldar torpaqların sahəsi azalır, onlara tələbat isə artır. Dünya əhalisinin artaraq 2050-ci ilə qədər 9 milyard nəfəri ötəcəyi gözlənilir. Bu cür vəziyyət ərzağa, yem və lifə tələbatın 60% artmasına gətirib çıxaracaq və bu, torpaq resurslarına tələbatın daha da yüklənməsi ilə nəticələnəcəkdir.

**Müdriklər deyib ki...**

***«Öz haqqınızda sərt həqiqəti dinləməyi, anlamağı və sevməyi öyrənin».***

**K.S.Stanislavski (1863-1938)**

